www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 aprel 2016-cı il Cümə № 92 (6413) Qiymәti 60 qәpik

## Xəbər

**Bakıda "ölüm hazırlayan" gizli sexlər-şok fotofaktlar**

yazısı səh.10-da

## Gündəm

**Düşmən Azərbaycanın mülki əhalisini hədəfə aldı - 2 dinc sakin həlak oldu**



Aprelin 28-i gecəsi davam edən 4 saatlıq artilleriya döyüşünə Vaşinqtondan və Moskvadan reaksiya gəldi; rəsmi Bakı beynəlxalq ictimaiyyətə müraciət etdi

yazısı səh.9-da

**Borclu şirkət rəhbərlərinin ölkədən çıxışı yasaqlandı**

yazısı səh.10-da

**"Freedom House"un "189-cu yer" hesabatına reaksiyalar**

yazısı səh.3-də

**Təkrar seçkilərin keçiriləcəyi yeganə dairədə mübarizə başladı**

yazısı səh.6-da

**Sərdar Cəlaloğlu vəfat edən qazi qardaşından danışdı**

yazısı səh.7-də

**Antiböhran Koalisiyası "Qarabağ və Rusiya işğalı" mövzusunda dəyirmi masa keçirdi**

yazısı səh.6-da

*Hikmət Hacızadə:*

**"Corc Kluni erməni arvadı Amalın xətrinə Ermənistana gedib"**

yazısı səh.11-də

**"Kanal D"nin yayımı niyə dayandırıldı - pərdəarxası məqamlar...**

yazısı səh.13-də

**Gürcüstan hökuməti Rusiyaya çaxıramı satılıb - ilginc iddia**

yazısı səh.12-də

**Dollar ərzaq məhsullarını yenə bahalaşdıracaq**

yazısı səh.11-də

**Qısqanc ər Sumqayıtda 23 yaşlı həyat yoldaşının başını kəsdi**

yazısı səh.15-də

## Qardaş ölkədən yerinə düşən qiymətli Qarabağ dəstəyi

# ƏRDOĞANDAN KREMLƏ VƏ İŞĞALÇIYA SƏRT İSMARIŞ - "AZƏRBAYCAN SİZƏ GÜRCÜSTAN VƏ UKRAYNA DEYİL..."

Türkiyə liderinin son Bakı səfəri zamanı təmkinli davranmasının əsas səbəbi üzə çıxır; "Ermənistan odla oynayır" uyarısı Rusiyaya da birbaşa və açıq xəbərdarlıq mesajıdır, çünki...




yazısı səh.8-də

# Ev dustağı edilən MTN generalının vəkilindən şok açıqlamalar

Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovu döyüb üzünə tüpürüblər; özünün və yaxınlarının əmlakları əllərindən alınıb; vəkili isə muxtar respublikadan zorla çıxarılıb

yazısı səh.4-də



**ABŞ rəsmisi hakimiyyətlə siyasi məhbuslarla bağlı danışıqlar aparıldığını açıqladı**

yazısı səh.3-də



*Bəxtiyar Sadıqov:*

**"Ərdoğanın çıxışı ilə bağlı AzərTAc-dan nə gəlibsə, onu dərc etmişik"**

yazısı səh.13-də



**Səfər Əbiyevin susqunluğunun sirri**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016

# Cəbhə bölgəsində yaşayan xəstə uşaqlar pulsuz əməliyyat olundu



**Respublika Diaqnostika Mərkəzinin invaziv kardiologiya və ürək-damar xəstəlikləri şöbəsinin mütəxəssisi Rəşad Mahmudov və nümayəndə heyəti cəbhəyanı bölgədə ürək qüsurları əməliyyatı keçirirlər.**

Virtualaz.org cəbhə bölgəsindən xəbər verir ki, Füzuli rayonunun Böyük Bəhmənli kəndinin Tibb Mərkəzində baş tutan və 4 gün ərzində keçirilən əməliyyatlarda 1-10 yaş arası anadangəlmə ürək qüsurlu uşaqlar müalicə olunub.

Rəşad Mahmudov jurnalistlərə açıqlamasında bildirib ki, iki gün ərzində 6 xəstə əməliyyat olunub, bu gün daha iki xəstənin əməliyyatı nəzərdə tutulub: "Xəstələrimiz arasında anadangəlmə ürək qüsurlu olanlarla yanaşı, sonradan qazanılmış qüsuru olanlar da var. "Uşaqların ürəyi Qarabağda döyünür" şüarı ilə keçirilən kampaniyamız bu həftə davam edəcək".

Cərrahın sözlərinə görə, əməliyyat olunacaq xəstələr seçilərkən onlar arasında məcburi köçkün olan və illərdir növbə gözləyənlərə üstünlük verilib.

Pulsuz cərrahiyyə əməliyyatı kampaniyası, təbii ki, hamıdan çox valideynləri məmnun edib. Mehrac Dadaşov deyir ki, oğlu Əvəz Dadaşov 17 günlük olanda yaşadıqları Füzuli rayonunda ona ürək qüsuru diaqnozu qoyulub. İllərdir ki, müalicə alan uşaq ürək qüsuruna görə bəzi şeylərdə yaşıdlarından geri qalıb: "Məktəbə getmirdi, müəllimlər gəlib evdə dərs keçirdilər. Uzun illərdir müalicə alırdı. Əməliyyata maddi imkanımız yox idi deyə, uşaq tam sağala bilmirdi, indi şükür ki, əməliyyat olundu".

**Valideyn deyir ki, aprelin 18-i onlara xəbər edilib və Bakıya çağırılıblar:** "Bakıda Respublika Diaqnostika Mərkəzinə getdik, orada öyrəndik ki, Böyük Bəhmənli kəndində pulsuz əməliyyat olunacaq. Uşaq da eşidəndə sevindi, dedi ki, daha təngnəfəs olmayacaq".

Sıra növbə gözləyən daha bir uşağa - 1 yaş yarımlıq Yusif Məmmədova çatdı. Xərəyə yatırılan Yusif jurnalistlərin müşayiəti ilə əməliyyat otağına aparıldı. Yarınigaran valideynlər bir neçə saat davam edəcək əməliyyatın uğurlu keçməsini gözləyir və dua edirlər. Belə görünür ki, kampaniyanın davam edəcəyi bir neçə gün ərzində hələ çox valideyn əvvəlcə belə həyəcan, daha sonra da sevinc yaşayacaq.

# Neftin qiyməti 47 dollar ətrafında dəyişir



**Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,20 dollar azalaraq 45,13 dollar təşkil edib.**

"APA-Economics"in məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,25 dollar azalaraq 46,93 dollar olub.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# "Hər bir səs Sərkisyanı titrədən, Ermənistanı lərzəyə salan qüvvə olmalıdır"

## Elxan Süleymanov: "Səslərimiz Ağ Evin rəsmi saytına girən milyonlarla insanı düşünməyə məcbur etməlidir"






**Aprelin 28-də AVCİYA-nın "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması" adlı petisiya layihəsini dəstəkləyənlər sırasına Bakı Slavyan Universiteti də qoşuldu.**

Bununla bağlı universitetdə keçirilən tədbir Azərbaycan dövlət himnimizin səsləndirilməsi və şəhidlərin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlandı.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, filologiya elmləri doktoru, professor Asif Hacıyev AVCİYA-nın prezidenti, deputat Elxan Süleymanovun fəaliyyəti, onun təşəbbüsü ilə AŞPA-nın qəbul etdiyi 2085 saylı qətnamə ilə bağlı məlumat verdi. Rektor qeyd etdi ki, petisiyanın dəstəklənməsi hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Elxan Süleymanov bildirdi ki, 2085 saylı qətnamə AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin böyük qələbəsidir. Qətnamə ilk dəfə olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu bildirən və təcavüzü düzgün qiymətləndirən beynəlxalq sənəddir. Millət vəkili qeyd etdi ki, qətnamədə Sərsəng su anbarı ilə bağlı yaranmış vəziyyətə də münasibət bildirilir, orada baş verə biləcək qəza ilə əlaqədar humanitar böhran yaranacağı təqdirdə məsuliyyətin Ermənistanın üzərinə düşəcəyi vurğulanır. E.Süleymanov söylədi ki, son günlər Ermənistanın Sərsəngin mühafizəsi üçün xüsusi təyinatlı dəstə göndərməsi də belə bir fəlakətin baş verə biləcəyini istisna etmir. O, Ağ Evin rəsmi saytındakı petisiya layihəsinin də Sərsəng uğrunda mübarizəni davam etdirmək zərurətindən qaynaqlandığını vurğuladı.

**Millət vəkili indiyədək petisiyaya 250 min nəfərdən artıq səs verilməsinin onu dəstəkləyənlərin ümumi sayı ilə müqayisədə bir damla olduğunu bildirdi. Tələbələri səsvermə prosesində fəal olmağa çağıran E.Süleymanov dedi:** "Hər bir səs Sərkisyanı titrədən, Ermənistanı lərzəyə salan qüvvə olmalıdır. Hər bir səs Ağ Evin rəsmi saytına girən milyonlarla insanı düşünməyə məcbur etməlidir. Səsvermə müddəti bitdikdən sonra Obama administrasiyası rəy üçün araşdırma aparacaq. Səsvermədə nə qədər çox adam iştirak edərsə, səsimiz o qədər çox əks-səda yaradacaq. Ona görə də mən bütün türk dünyasını petisiyaya səsverməyə çağırıram".

**Petisiyaya qoşulmaq üçün https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe linkinə daxil olmaq lazımdır.**

**E.MƏMMƏDLİ**



# "TQDK-nın ləğvi istiqamətində işlər aparırıq"

**"Dövlət İmtahan Mərkəzinin yaradılması ilə bağlı prezidentin verdiyi fərmanda xüsusi bənd var. Orada qeyd edilir ki, Dövlət İmtahan Mərkəzi dövlət qeydiyyatına götürüldükdən sonra Tələbə Qəbulu üzrə Dövlət Komissiyası və Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ləğv ediləcək. Hazırda biz bu istiqamətdə müəyyən işlər aparırıq".**

APA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.

Onun sözlərinə görə, bu istiqamətdə işlər başa çatanda və DİM dövlət qeydiyyatına alındıqda, hər iki qurumun işinə xitam veriləcək.

M.Abbaszadə qeyd edib ki, hüquqi-normativ prosedurlar iki ay davam edəcək. "Strukturu formalaşdıqdan sonra ləğv ediləcək TQDK və DQMK-nın işçiləri arasında ixtisarlar olacaqmı" sualının cavabında isə mərkəz sədri bu haqda nəsə deyə bilməyəcəyini bildirib: "Strukturu formalaşdıqdan sonra biz bu işə başlayacağıq".



# Bakı sakini oğlunun sevgilisini qətlə yetirib

**Bakıda qətl törədilib. Suraxanı Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Bülbülə qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini Yuri Raskov oğlu ilə qeyri-rəsmi nikahda olduğu 1982-ci il təvəllüdlü İnna Berezuyevanı çoxsaylı bıçaq zərbəsi ilə qətlə yetirib.**

Hadisəni törədən Y. Raskov saxlanılıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.



# Ermənistanın təxribatçı əməlləri ilə bağlı cinayət işləri başlanıb

**Azərbaycan Respublikasının işğal altında olan ərazilərində yerləşən Ermənistan hərbi hissələri növbəti dəfə təcavüzkar əməllərini davam etdirərək ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutmaqla beynəlxalq humanitar hüquq normalarının tələblərini kobud surətdə pozub.**

APA-nın xəbərinə görə, Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələri aprelin 27-28-də Azərbaycanın işğal olunmuş ərazilərindən Ağdam və Tərtər rayonlarının ərazilərini iri çaplı silahlardan və ağır artilleriya qurğularından atəşə tutaraq mülki əhalinin qəsdən öldürülməsi və vətəndaşların şəxsi mülkiyyətində olan əmlaklarının qəsdən məhv edilməsi məqsədilə təxribat törədib.

Nəticədə Ağdam rayonunun Çəmənli kənd sakini Mustafayev Famil Əli oğlu mərminin yanında partlaması nəticəsində qətlə yetirilib, həmin kəndin, həmçinin Ağdam rayonunun Qaradağlı və Əfətli kəndlərinin 6 sakini qəlpə xəsarətləri alaraq yaralanıblar. Onlardan birinin vəziyyəti ağırdır.

Qeyd edilən yaşayış məntəqələrində, eləcə də Tərtər rayonunun Qapanlı, Həsənqaya, Qazyan və Qaynaq kəndlərində onlarla ev, orta məktəb və digər sosial obyektlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəyib.

Həmin faktlarla bağlı Ağdam və Tərtər rayon prokurorluqlarında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb, istintaq aparılır.



# "S.A.B.A şirkəti"nin baş mühasibinə 10 il cəza verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən "S.A.B.A şirkəti" MMC-nin baş mühasibi Taleh Rəhimovun cinayət işi üzrə məhkəməsi başa çatıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Faiq Qəniyev sədrlik edib. Prosesdə T.Rəhimova hökm oxunub. Hökmə görə, 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, "S.A.B.A şirkəti" MMC-nin direktoru Əvəz Səfərli Binəqədi Rayon Prokurorluğuna müraciət edib. O, şirkətdə 174 min 504 manatlıq maliyyə çatışmazlığı aşkarlandığını deyib. Daha sonra "S.A.B.A şirkəti" MMC-nin baş mühasibi Taleh Rəhimov şirkətin 174, 5 min manatını mənimsəməkdə şübhəli bilinərək saxlanılıb. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham olunur.

Xatırladaq ki, "S.A.B.A. şirkəti" MMC 2000-ci ildən istehsal fəaliyyətinə başlayıb.

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016

# ABŞ rəsmisi hakimiyyətlə siyasi məhbuslarla bağlı danışıqlar aparıldığını açıqladı

## Dövlət katibinin köməkçisi Tom Malinovski: "Biz Azərbaycan hakimiyyətinin bəzi müsbət addımlarını görürük, amma..."



Tom Malinovski



İlqar Məmmədov

## İlqar Məmmədovla bağlı qərar bu gün açıqlanacaq

**REAL hərəkatının sədri İlqar Məmmədovun aprelin 22-də Şəki Apelyasiya Məhkəməsində qeyri-müəyyən vaxta təxirə salınan məhkəmə prosesindən hələ də xəbər yoxdur. Bu həftənin ilk günü keçirilməsi planlaşdırılan proses yubadılır. Bu barədə müsavat.com-a REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova məlumat verdi: "İlqarla məhkəmədən sonra danışmışam. Özü zəng etmişdi. Hələ ki hazırda saxlanıldığı Şəki İstintaq Təcridxanasında vəziyyəti yaxşıdır. Orada şəraiti pis deyil. Heç bir təzyiq hələ ki yoxdur".**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, İ.Məmmədovun vəkil Fuad Ağayev bildirib ki, İlqar Məmmədov və Tofiq Yaqublunun işi üzrə məhkəmə qərarı bu gün-aprelin 30-da saat 15:00-da elan olunacaq.

Qeyd edək ki, T. Yaqublu və İ. Məmmədov İsmayıllı hadisələri ilə bağlı həbs olunublar. Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlqar Məmmədov 7 il, Tofiq Yaqublu 5 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti Şəki Apelyasiya Məhkəməsinin qərarı ilə təmin edilməyib. Müdafiə tərəfi qərardan kasasiya şikayəti verib və onların barəsində olan hökmün ləğv edilməsi, həmin şəxslərin azadlığa buraxılmasını istəyib. Ali Məhkəmə kasasiya şikayətini qismən təmin edib.

Şəki Apelyasiya Məhkəməsinin İ. Məmmədov və T. Yaqublu barəsindəki qərarı ləğv edilib, işə yenidən baxılması üçün həmin məhkəməyə qaytarılıb. Xatırladaq ki, Tofiq Yaqublu Novruz bayramı ərəfəsində prezidentin imzaladığı əfv sərəncamına əsasən, azadlığa buraxılıb, lakin bəraət üçün tələbini geri götürməyib.

**Digər siyasi məhbus, Müsavat başqanının müavini Fərəc Kərimlinin Ali Məhkəmədə keçiriləcək prosesinin vaxtı məlum olub. Vicdan məhbusunun hökmündən verilən şikayətə mayın 3-də saat 10:30-da baxılacaq. Başqan müavininin vəkili Nemət Kərimli ümidli danışdı:** "Son günlərdə siyasi məhbuslarla bağlı verilən qərarlar, onların bir qisminin azad edilməsi, eləcə də İntiqam Əliyevlə bağlı Ali Məhkəmənin çıxardığı qərar bizdə ümidlər yaradırdı ki, mayın 3-də Fərəc Kərimli barədə də bu cür qərar verilə bilər, yəni onun cəzası şərti cəza ilə əvəzlənər. Bu məsələdə bir qədər ümidliyəm. Bildiyiniz kimi, 2014-cü ilin avqust ayından Fərəc və Sirac Kərimli qardaşları "Amnesty International" təşkilatı tərəfindən vicdan məhbusu elan olunublar. Bu bizə ümid verir ki, onun cəzası şərti cəza ilə əvəzlənsin".

**F.Kərimlinin atası Raqif Kərimli oğlunun həbsxanada vəziyyətinin normal olduğunu bildirdi:** "Mayın 3-də məhkəməsinin olacağı barədə bildiriş veriblər. Özü aprelin 26-da zəng etmişdi. Vəziyyəti normaldır. İnamımdan hər şey asılı deyil. Amma göründüyü kimi, ötən ayda siyasi məhbuslarla bağlı gözlənilməz qərarlar oldu. Buna görə istənilən qərar verilə bilər".

**NİDA-çı gənc Əbdül Əbilovun anası Nurcahan Əbilova da oğlunun vəziyyətinin qənaətbəxş olduğunu qeyd etdi:** "Telefonla danışırıq. Vəziyyətini yaxşı olduğunu deyir. Onun problemi olsa da demir. Əfvlə bağlı soruşanda deyir ki, əfvlə maraqlanmıram, siz məndən daha yaxşı bilərsiniz. İndiyə qədər oğlum azadlığa buraxılmayıbsa, bundan sonra nə olacaq, tək Allah bilir".

**Araşdırmaçı jurnalist Xədicə İsmayılın Ali Məhkəmədə keçiriləcək prosesindən isə xəbər yoxdur. Vəkil Fariz Namazlı kasasiya şikayətinə baxılacaq günün məlum olmadığını söylədi:** "Prosesin təyin olunacağı günü gözləyirik. Nədənsə məhkəmə günü gecikir. Hazırda Xədicə xanımın vəziyyəti yaxşıdır. Yəqin ki, may ayında proses təyin olunacaq. Çünki üzərindən daha uzun müddət keçib".

Aprelin 28-də ABŞ Konqresində insan hüquqları sahəsində layihələrin dəstəklənməsi haqqında dinləmələr keçirilib. Müzakirələr zamanı senator Ben Kardin dövlət katibinin köməkçisi Tom Malinovskiyə Azərbaycanda həbsdə jurnalist Xədicə İsmayılın taleyi haqqında sual verib.(contact.az).

**Tom Malinovskinin cavabı belə olub:** "Biz X.İsmayılı azad etməyə çağırmışıq və çağırırıq və onun işi haqqında yaxşı məlumatımız var. Son həftələrdə biz Azərbaycan hakimiyyəti ilə insan hüquqları məsələləri ilə bağlı çox intensiv danışıqlar aparmışıq. Zənnimcə, bunun sayəsində bir sıra siyasi məhbusların, o cümlədən İntiqam Əliyevin, Rəsul Cəfərovun, Anar Məmmədlinin azad edilməsi mümkün olub. Biz Azərbaycan hakimiyyətinin bəzi müsbət addımlarını görürük, amma razıyam ki, bu, kifayət deyil və Xədicə İsmayıl da daxil olmaqla, bir çoxları həbsdə qalır ki, onlar orada olmamalıdır.

Hesab edirik ki, qalan siyasi məhbusların azad edilməsi, Azərbaycanda daha çox mətbuat və ifadə azadlığının təmin edilməsi bu ölkəyə və onun Amerika ilə münasibətlərinə xeyir gətirəcək" deyə, Malinovski bildirib.

❑ Cavanşir ABBASLI

# "Freedom House"un "189-cu yer" hesabatına reaksiyalar

FREEDOM HOUSE

**"Freedom House" hüquq-müdafiə təşkilatı dünyada mətbuat azadlığının vəziyyəti ilə bağlı illik hesabatını açıqlayıb. Hesabatda göstərilir ki, son 12 ildə dünyada media azadlığının səviyyəsi ən aşağı həddə enib. 199 ölkənin yer aldığı hesabatda mətbuat "azad", "qismən azad" və "azad olmayan" kimi təsnif edilir.**

Bu dəfə də "Freedom House" Azərbaycanı son sıralarda göstərib. Belə ki, hesabatda Azərbaycanın adı "azad olmayan mətbuat" ölkələr sırasında 189-cu yerdə çəkilib. Təşkilatın hesabatı ölkəmizdə ciddi etiraz doğurub. Buna səbəb Ermənistanın 139-cu və Rusiyanın 176-cı yerdə göstərilməsidir. Əksəriyyət "Freedom House" təşkilatının Azərbaycana qərəzli münasibət sərgilədiyini iddia edir. Belə fikirlər də var ki, təşkilat bu hesabatı hazırlayarkən, Pərviz Həşimli və Rauf Mirqədirov hələ azadlığa buraxılmamışdı. Bu səbəbdən Azərbaycanın son sıralarda göstərildiyini düşünənlər də az deyil.

**Son illərdə fəaliyyətini dayandırmağa məcbur olan "Ayna Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı ölkədə medianın vəziyyətinin ağır olduğunu söylədi:** "Fəaliyyətimizi dayandırmağımızın hesabata nə qədər təsirinin olduğunu deyə bilmərəm. Amma qeyd edim ki, hesabat hazırlananda Rauf Mirqədirov və Pərviz Həşimli məhbəsdə idi. Bir sıra məqamlar var ki, hesabata birbaşa təsir edir. Hesabat hazırlanan zamandan ölkəmizdəki medianın durumu ilə bağlı müəyyən qədər irəliləyişlər var. Amma ümumən götürdükdə mühit yaxşı deyil. Müstəqil şəkildə mətbuat orqanı saxlamaq üçün heç bir şərait yoxdur. Söz azadlığı o zaman olur ki, azad şəkildə peşə fəaliyyəti ilə məşğulsan, tənqid edirsən, əskikləri göstərirsən. Öz işini düzgün, qərəzsiz görürsənsə, hökumət mexanizmi səni məhv etməyə çalışmır. O halda media mühiti ölkədə sərbəst sayılır. Belə götürdükdə, nə sizin, nə də mənim ağzımı yuman yoxdur. Sadəcə olaraq, tənqid edəndən sonra elə bir şərait yaradılır ki, ağzımı açmağa qorxuram, yaxud ağzımı açmağa davam edirsəmsə, məni başqa ittihamlarla şərləyib həbs edirlər. Nəticədə fəaliyyətim məhdudlaşır. Bu göstəricilər ümumi mühiti yaradır. 7-8 il əvvəl Azərbaycan xarici mediaya açıq idi, amma indi qapanmışıq. Rusiyanı nəzərdə tutmuram, çünki onlar media deyillər. Bura gələndə ancaq təxribatla məşğul olurlar. Qərb media nümayəndələrini nəzərdə tuturam. Onların ayaqlarını buradan kəsmişik. Nəticədə xarici mediaya çıxışımız daralıb. Bunun özü reytinqə təsirini göstərir. Xarici jurnalistlər ölkəmizdə hansısa bağda çəkiliş apardığı zaman polislər tərəfindən saxlanılır və neçə saat böləmədə qalırlar. Buradan getdikdən sonra Azərbaycan barədə tənqidi məqalə yazırlar. Bu isə belə reytinqlərə birbaşa təsir edir. Söhbət "Ayna Zerkalo"nun bağlanmasından, "Yeni Müsavat"ın kəskin yazıb-yazmamasından, "Azadlıq" qəzetinin isə çox savaşdığından getmir. Bunlar öz problemlərimizdir. Amma ümumilikdə xarici mediaya qapanmışıq. 1-2 jurnalisti bura gələ bilər. Onların sözünə isə baxan yoxdur. Daha çox bu sahədə dünyaya açılım etməliyik".



**Elçin Şıxlı:**
"Belə götürdükdə, nə sizin, nə də mənim ağzımı yuman yoxdur, sadəcə..."



**Zahid Oruc:**
""Freedom House"un özünün azad və yaxşı ev olmadığını söyləyə bilərik"

**İqtidaryönlü deputat Zahid Oruc bildirdi ki, "Freedom House"un hesabatı absurdluğun son nöqtəsidir:** "Əminəm ki, Azərbaycanda onların qorumağa çalışdıqları mətbuat orqanlarının belə 189-cu yer təəccüblərinə səbəb oldu. Elə zənn edirlər ki, bizdə 2-3-cü alternativ fikri söyləyən mətbuat orqanları yoxdur. Ən zorakı, totalitar cəmiyyətlərdə müəyyənləşdirdikləri yeri ölkəmizə veriblər. Düşünürəm ki, "Freedom House"un özünün yeri 189-cudur. Ona görə ki, mətbuatın yerini müəyyənləşdirməyin parametrləri var. Yeni-yeni saytların yaradılmasından, eləcə də mətbuata yaradılan şəraitdən çıxış edərək, Azərbaycanda bu sahədə heç bir problemin olmadığını düşünürəm. Azərbaycanda medianın dövlət məmurlarına qarşı xüsusi proses apardığının şahidi olmuşuq. Hər gün ya bir nazir "işdən çıxarılır", ya da haqqında reallıqdan uzaq xoşagəlməz yazılar dərc olunur. Bununla bağlı bəzi məhkəmə çəkişmələri olub. Amma hakimiyyətin yuxarı pilləsinin daim bir mövqeyi olub ki, yazılarına görə mətbuat məhkəməyə verilməsin. Mətbuatın vəziyyətinə görə 189-cu olan ölkədə 1850-ci illər yaşanar. Bizdə mətbuat çıxmırmı? "Freedom House" yəqin zənn edir ki, Azərbaycanda, ümumiyyətlə, mətbuat fəaliyyət göstərmir. "Freedom House"un özünün azad və yaxşı ev olmadığını söyləyə bilərik. Qərəzsiz hesabat verən qurumlara hazırda ciddi ehtiyac var. Bu kimi təşkilatlar, sadəcə, beynəlxalq aləmin əlində alətdirlər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016

**Hazırda ev dustağı olan Naxçıvan Muxtar Respublikasının(MR) keçmiş milli təhlükəsizlik naziri Vəli Ələsgərov işgəncələrə məruz qalıb. Bu haqda Bakıdakı çayxanalardan birində keçirdiyi mətbuat konfransında onun vəkili Vüqar Xasayev bildirib. V. Xasayev mətbuat konfransının çayxanada keçirilməsini Bakıdakı mətbuat mərkəzlərində tədbir üçün yer verilməməsi ilə izah edib.**



# Ev dustağı edilən MTN generalının vəkilindən şok açıqlamalar

## Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovu döyüb üzünə tüpürüblər; özünün və yaxınlarının əmlakları əllərindən alınıb; vəkili isə muxtar respublikadan zorla çıxarılıb

Vəkilin sözlərinə görə, 15 il Naxçıvan milli təhlükəsizlik naziri olmuş V.Ələsgərov ötən ilin dekabrında tutduğu vəzifədən azad olunub, 2016-cı il martın 7-də isə saxlanılaraq barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Bundan sonra istintaq təcridxanasına göndərilib. Martın 11-də isə V.Ələsgərovun yaxınları onun hüquqlarının qorunması üçün vəkil Vüqar Xasayevlə müqavilə bağlayıblar. Bundan 3 gün sonra Vüqar Xasayev Naxçıvana gedərək müvəkkili ilə görüşüb. Martın 14-də baş tutan görüş sonuncu olub: “Həmin görüşdə o, dövlət tərəfindən təyin olunan Mustafa adlı vəkildən imtina ərizəsi yazdı. Həmin gün 2 dəfə görüşüb mövqeyimizi dəqiqləşdirdik. Vəli Ələsgərov dedi ki, ona qarşı zorakılıq olub. Lakin bu haqda müraciət etməmək qərarı verdik. Vəli Ələsgərovun gözləntiləri vardı ki, ona güzəştlər olacaq. Vəli Ələsgərova qarşı Cinayət Məcəlləsinin 3 maddəsi ilə ittiham irəli sürülüb: 179.3.2 (dövlət məlakını mənimsəmə), 308.1 (qulluq mövqeyindən sui-istifadə etmə) və 309.1 maddələri (vəzifə səlahiyyətlərini aşma). Müdafiə etdiyim şəxs bu ittihamları rədd edir. Digər tərəfdən, bu ittihamları əsaslandıracaq hər hansı sübut yoxdur. Bu maddələr vəzifədən çıxarılan hər bir məmura qarşı irəli sürülə bilər. Yəni növbətçi maddələrdir. O, həbs olunan zaman şokda olub, hansı ifadələr verdiyini bilmir. Bu haqda ərizədə yazdı ki, həmin ifadələrdən imtina edir, iş üzrə obyektiv ifadələr vermək istəyir”.

**Vəkil dedi ki, bu görüşdən sonra sabiq nazirlə görüşə bilməyib. Növbəti dəfə Naxçıvana gedəndə isə özü qanunsuzluqla üzləşib:** “Mənə Vəli Ələsgərovla görüşməyə şərait yaratmadılar. Evlərində gözlədiyim zaman Vəli Ələsgərovun qardaşı Əli Ələsgərova zəng edib dedilər ki, Naxçıvan Daxili İşlər Nazirliyinin Cinayət Axtarış Şöbəsinin rəis müavini onu küçədə gözləyir. Biz birgə evdən çıxdıq. Rəisi müavini mənə də dedi ki, Əli Ələsgərovla birgə onunla getməliyəm. Onun qanunsuz tələbi ilə razılaşmadım. Buna görə də özü maşından düşüb gəldi, məndən onunla getməyi tələb etdi. Bundan sonra üzərimdə axtarış aparacağını dedi. Bunun yalnız respublikanın baş prokurorunun qərarı əsasında aparıla biləcəyini deyəndən sonra kiməsə zəng etdi. Qulu adlı rəisləri gəldi. Dedi ki, çantana baxış keçirəcəyik. Dedilər ki, baxmasaq, məcburi şəkildə polisə aparacaqlar. Bundan sonra çantama baxdılar”.

**Vəkil deyir ki, martın 15-də Vəli Ələsgərovu məcbur ediblər ki, ondan imtina etsin. V.Xasayevin sözlərinə görə, işdə həddən artıq qanunsuzluqlara yol verilib:** “Ona saxlanıldığı istintaq təcridxanasında işgəncə veriblər. Keçmiş işçiləri də həmin işgəncələrdə iştirak edib. Bəzi işçilər Vəli Ələsgərovun üzünə tüpürüblər. Bizim vəsatətlərimizi də Vəli Ələsgərovun imtina ərizəsini əsas gətirərək təmin etmədilər”.

**Vəkilin sözlərindən aydın olur ki, Vəli Ələsgərov 22 gün həbsdə saxlanıldıqdan sonra ev dustaqlığına buraxılıb:** “Bundan sonra mənimlə skaypla əlaqə saxlayaraq bildirdi ki, həmin imtina ərizəsini məcburiyyət qarşısında, öz həyatını qorumaq üçün imzalayıb. Çünki ona işgəncə veriblər, döyüblər, təhqir ediblər. Ona görə də xahiş edir ki, onun müdafiəsini təmin edim. Aprelin 26-da onunla yenidən müqavilə bağlamışıq”.

**Vəkil deyib ki, V.Ələsgərov digər vəkili Tofiq Allahverdiyevlə də müqavilə bağlayıb:** “Tofiq Allahverdiyev də Naxçıvana getdi, lakin ona Vəli Ələsgərovla görüşməyinə imkan vermədilər. İki nəfər onun qoluna girib Naxçıvan aeroportuna gətirib nəzarət altında təyyarəyə mindiriblər. Onu Naxçıvandan, faktiki, deportasiya ediblər. Vəli Ələsgərova Naxçıvan Prokurorluğunda zorakılıq tətbiq olunmur, onunla ləğv olunmuş MTN-in binasında amansız davranırlar. Maskalı, maskasız şəxslər onu döyürlər, amansız rəftara məruz qalır. Köhnə işçiləri yığıb üzünə tüpürdürlər. Bunu mənə şəxsən Vəli Ələsgərovun özü bildirib. Biz baş prokurora müraciət edirik ki, istintaq Naxçıvanda davam edirilə bilməz, işə Bakıda baxılmalıdır. Bizə onunla görüşə imkan verilmir”.

**Vəkil sabiq nazirə qarşı zorakılıq etmiş işçilərin ad-soyadlarının onlara bəlli olduğunu desə də, mətbuata açıqlamaq istəmədi. Dedi ki, Vəli Ələsgərovun həbsi onun barəsində doğru olmayan məlumatların rəhbərliyə çatdırılması ilə əlaqədardır:** “Vəli Ələsgərovun işinin hazırda istintaq olunan ”MTN işi” ilə heç bir əlaqəsi yoxdur. Əgər əllərində qanunsuz dinləmə ilə bağlı hər hansı bir sübut olsaydı, ona belə bir ittiham verərdilər. Bu gün onun fiziki məhvi də mümkündür. Biz ölkə rəhbərliyinə, baş prokurora müraciət edərək işin istintaqının Bakıdakı aidiyyəti orqana həvalə olunmasını xahiş edirik. Çünki Naxçıvanda bu iş obyektiv aparıla bilməz, orada işgəncələr altında Vəli Ələsgərovdan istədikləri ifadələri alacaqlar".



**Vəkil sabiq nazirin həbsə alınmasının sifariş olduğunu deyib:** “Sifariş nədən ibarətdir? Burada hakimiyyətdaxili mübarizə, oyun gedib. Vəli Ələsgərov barəsində cənab Vasif Talıbova və respublika prezidentinə düzgün olmayan məlumatlar verilib. Bunun nəticəsində bu gün Vəli Ələsgərov istintaqa cəlb olunub, təzyiq və işgəncələrə məruz qalır. Ona həbsindən 3 ay əvvəl general-leytenant rütbəsi verilib. O, dövlətçiliyə sadiq olub”.

**V.Ələsgərov Naxçıvan MTN-ə rəhbərlik etdiyi dövrdə jurnalistlər İlqar və Məlahət Nəsibovalar vəhşicəsinə döyülüb, İdrak Abbasovun başına torba keçirilib, Turac Zeynalov həmin qurumda döyülərək öldürülüb. Digər qanunazidd əməllər baş verib və ictimailəşib. “Yeni Müsavat” olaraq vəkildən bu qanunsuzluqlarla bağlı ittihamların olub-olmamasını soruşduq. Vəkilin cavabı belə oldu:** “Cəmi 3 maddə ilə ittiham verilib. Turac Zeynalovla bağlı Vəli Ələsgərovluq bir iş yoxdur. Bizdə olan məlumat budur. Vəli Ələsgərovun cinayəti varsa, qanunla araşdırılsın, varsa, sübut edib cəzasını versinlər. Bu gün vəzifədə olanlar Vəli Ələsgərovun düşdüyü duruma baxıb qanunsuzluqlardan çəkinməli, ibrət götürməlidirlər”.

**Vəkil V.Ələsgərovun sabiq nazir Eldar Mahmudovla əlaqələrinə görə həbsə alınmasına da aydınlıq gətirdi:** “Vəli Ələsgərovla Eldar Mahmudov arasında həmişə ziddiyyətlər olub. Sadəcə, kimlərsə yuxarılara səhv məlumatlar veriblər”.

Vəkil dedi ki, Vəli Ələsgərovun Azərbaycanın milli təhlükəsizlik naziri postuna təyinatı məsələsi də müzakirə edilib, onun özü ilə söhbət aparılıb. Təyinat baş tutmadıqda isə ona qarşı repressiv addımlar atılıb, iyrənc kampaniya başladılıb. Özünü həbs edib, yaxınlarının əmlaklarını əllərindən alıblar. Vəkil həmin əmlakların siyahısını da media mənsublarına təqdim edib.

**Həmin siyahını da təqdim edirik:**

*1. Vəli Ələsgərova məxsus Şahbuz rayonunda fərdi ev;*

*2. Vəli Ələsgərova məxsus Bakı şəhərində 3 mənzilonlardan birini prezident verib;*

*3. Vəli Ələsgərovun qardaşı Əli Ələsgərova məxsus quşçuluq fabriki (təqribi dəyəri 1 milyon 500 min manat);*

*4. Əli Ələsgərov tərəfindən dövlətin ayırdığı kreditlə alınmış un və çörək fabriki (təqribi dəyəri 450 min manat);*

*5. Əli Ələsgərova məxsus 300 min manatlıq fərdi ev 110 min manata satılıb və pulu əlindən alınıb;*

*6. Qaz və işıq idarələrində qeyri-qanuni olaraq 57 min manat məbləğində cərimələr yazılıb;*

*7. Əli Ələsgərov 2-3 gün polisdə saxlanıldıqdan sonra 100 min manat pul alınıb buraxılıb;*

*8. Qohumlara məxsus nəqliyyat vasitələri (təqribi dəyəri 160 min manat);*

*9. Ümumi sahəsi 550 kv.m. olan dükanlar sökülüb;*

*10. Əli Ələsgərova qeyri-qanuni 650 min manat vergi borcu yazılıb;*

*11. Vəli Ələsgərovun bacısına məxsus 8,5 sot torpaq sahəsi (təqribi dəyəri 120 min manat) və 4 otaqlı mənzil (təqribi dəyəri 80 min manat);*

*12. Vəli Ələsgərovun digər bacısına məxsus 4,5 sot torpaq sahəsi məhkəmənin saxta qərarı ilə alınıb (təqribi dəyəri 50 min manat);*

*13. 50 nəfərdən artıq yaxın və uzaq qohumu bir gündə işdən azad olunub*

**V.Xasayev siyahını səsləndirəndən sonra fikrini belə davam etdirdi:** “Bu əmlaklar Vəli Ələsgərovun yaxınlarından başqa şəxslərin adına keçirilməklə alınıb. Özlərinə deyiblər ki, ”əmlaklarınızı verin, sizinlə işimiz olmayacaq". Necə oldu ki, Vəli Ələsgərov nazir olanda onun yaxınları bu əmlakları başqalarının adına keçirib bağışlamırlar özgəninkiləşdirmirdilər? Vəli Ələsgərov işdən çıxarıldı, qohumları əmlaklarını başqalarına bağışladılar?"

Vəkil ümumilikdə 6 milyon manat qiymətləndirilən əmlakların qanuni və ya qanunsuz yolla əldə olunması haqda məlumatsız olduğunu söylədi.

**Bundan sonra V.Ələsgərovun digər vəkili Tofiq Allahverdiyev də Naxçıvanda üzləşdiyi qanunsuzluqlar haqda məlumat verdi. Bildirdi ki, ona da müvəkkili ilə görüşməyə imkan vermirlər:** “Məni faktiki olaraq Naxçıvandan deportasiya ediblər”.

**Vəkil üzləşdiyi qanunsuzluqlarla bağlı baş prokurora müraciət etdiyini də açıqlayıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016



# Səfər Əbiyevin susqunluğunun sirri

## Ekspertlər sabiq nazirin susmasını şərh elədilər; "Əgər Əbiyev doğrudan da xaricə buraxılıbsa, bu, anormal və təhlükəli bir haldır..."

**Son bir ayda cəbhə xəttimizdə baş verən gərginlikdə bir məqam diqqət çəkdi. 1995-2013-cü illərdə Azərbaycanın müdafiə naziri olmuş Səfər Əbiyev ortalıqda görünmədi. Təsadüfi deyil ki, 18 il nazir olan bu şəxsin bir dəfə də olsun, müharibə ilə bağlı açıqlamasının şahidi olmadıq.**

Sabiq nazirin varlığından-yoxluğundan hər kəs xəbərsizdir. Onun gah Çexiyada olduğu, gah da Azərbaycanı tərk etmədiyi haqda şayiələr dolaşır. Bir faktı da qeyd edək ki, aylardır Əbiyevin keçmiş müavini Mehman Səlimovun üzərində gedən məhkəmə günlər öncə yekunlaşıb və o, 8 il müddətində azadlıqdan məhrum edilib. Məhkəmə proseslərində birbaşa adı hallanan sabiq müdafiə nazirimiz bir dəfə də olsun ki, prosesdə iştirak etməyib.

Əbiyevin yoxluğunun fonunda bir məsələ də gündəmə gəlib: uzun müddət müdafiə naziri işləmiş bir şəxsin ölkəni tərk etməsinin yarada biləcəyi təhlükələr hazırda əsas müzakirə mövzudur. Çünki 18 il nazir olan şəxs heç şübhəsiz ki, hərbi sirlərimiz barədə məlumatlıdır. Əslində qalsa, dünya ölkələrinin əksəriyyətində müdafiə naziri işləyən şəxs vəzifəsindən getdiyi zaman onun ölkədən çıxışı da qadağan olunur.

**Politoloq Qabil Hüseynli bildirdi ki, Əbiyevin son proseslərlə bağlı fikir bildirməməsi ciddi qəbahətdir:** "Uzun müddət müdafiə naziri işləmiş bir şəxs ordumuzun hazırkı uğurları ilə bağlı fikir bildirmirsə, deməli, bu şəxs nazir olduğu 18 il ərzində ordu quruculuğunda ciddi uğur qazanmadığını etiraf edir. Onun bu məsələlərə qibtə hissi ilə yanaşdığının şahidi oluruq. İndiki nazir iki ildir çalışır. Bu illər ərzində bölgənin ən güclü ordusunu yarada bildi. Əlbəttə, bu işdə ölkənin Ali Baş Komandanının da böyük rolu var. İndiki nazir qurduğu ordunu təkmilləşdirməkdə davam edir. Səfər Əbiyev isə "kabinet naziri" idi. Ordudakı təlimlərə də diqqət ayırmırdı. Onun dövründə hərbi təlimlər nadir hallarda keçirilirdi. Zakir Həsənov nazir gələndən ordu bir an da sakit dayanmır. Bir sözlə, Azərbaycan ordusunu ön sıralara çıxara bildi".

**Politoloq sabiq müdafiə naziri ilə bağlı cəmiyyət daxilində müxtəlif fikirlər dolaşdığını da qeyd etdi:** "Əbiyevin böyük malikanələrinin olması barədə fikirlər var. Bunların heç birini o, inkar etmir. Hətta reaksiya belə bildirmir. Bunun özü də ciddi əskiklikdir. Bu şəxs heç olmasa, onu tənqid edənlərə fikir bildirməlidir. Amma bunu da bacarmır. Ümumiyyətlə, müdafiə naziri işləyən şəxsin ölkədən kənarda yaşamasına icazə verilməməlidir. Hərbi, dövlət sirlərini bilən şəxsin ölkədən çıxışına ən azı 10-15 il qadağa qoyurlar. Elə ölkələr var ki, müdafiə naziri olmuş şəxs ömrünün axırına qədər ölkəni tərk edə bilmir. Əgər Əbiyev doğrudan da xaricdə yaşayırsa, bu çox anormal bir haldır. Bu, Azərbaycan ordusuna zərər verə biləcək ehtimalları olan hallardan biri kimi qiymətləndirilməlidir".

**Q.Hüseynli Əbiyevin müavininin məhkəməsində iştirak etməməsinə də toxundu:** "Çox təəccüblü bir haldır. Onun müavini olmuş şəxs kütləvi yeyinti hallarına görə həbs edilib. Həbslə bağlı müəyyən məqamlarda Əbiyevin də adı keçirdi. Belə olan halda müavini ilə yanaşı onun da məsuliyyətinin yarandığını, zənnimcə, etiraf etmək lazımdır. Əgər bir şəxs 10 ildən artıq orduda çalışırsa, təchizat işi ilə məşğul olursa, yeyinti halları ortaya çıxırsa, o zaman bu iş bir şəxsin üzərinə yıxılmamalıdır. Ən azından burada birinci şəxsin məsuliyyəti müəyyən edilməli və onun ətrafında da istintaq işləri aparılmasına, düşünürəm ki, ehtiyac var".

**Hərbi ekspert Üzeyir Cəfərov hər bir şəxsin üzərinə düşən iş barədə cəmiyyətə hesabat verməli olduğunu qeyd etdi:** "Hesabat vermək normal bir haldır və ölkənin göstəricilərindən biridir. Sabiq müdafiə naziri də nadir hallarda mətbuat qarşısına çıxırdı. Ondan fərqli olaraq, hazırkı müdafiə naziri tamam fərqli mövqe nümayiş etdirir. Bu mövqe də müharibə aparan ölkənin birinci əsgəri üçün yaxşı haldır. Amma bu gündən danışaq. Gedənin arxasınca danışmağı sevmirəm. Keçmiş və indinin özündə yaxşı işlər də var, mənfilər də. Elin gözü tərəzidir. İndiki nazirin gördüyü işlər göz qabağındadır. Təkcə sabiq müdafiə naziri Səfər Əbiyev deyil, başqaları da var. Onları da bu proseslərdə görmək istərdim. İndi çoxları danışmır, niyə danışmırlar? Bundan ağır gün də ola bilərmi? Hər kəs danışmalı, öz kanalları ilə təbliğat aparmalıdır. Müharibə təkcə cəbhədə olmur, informasiya savaşı da əsas rol oynayır".

❑ **Cavanşir ABBASLI**

# "Bulaq"dakı atışmaya görə daha iki həbs

**Bakı şəhəri, Səbayel rayonu ərazisindəki "Bulaq" restoranında baş vermiş silahlı insidentlə əlaqədar axtarışa verilmiş şəxs tutulub. Bu barədə "Report"a Daxili İşlər Nazirliyindən (DİN) məlumat verilib.**




Belə ki, Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Cinayət Axtarışı İdarəsi, Nərimanov Rayon Polis İdarəsi, Qazax Rayon Polis Şöbəsi (RPŞ) və Ağstafa RPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 21-də Səbayel rayonu ərazisindəki "Bulaq" restoranında baş vermiş münaqişə zamanı "Makarov" markalı tapançadan atəş açaraq F.Əkbərova və S.Abdullayevə xəsarət yetirmiş paytaxt sakini, əvvəllər məhkum olunmuş Samir Allahyarov Qazax rayonu ərazisində tutulub. Onun hadisəni törədərkən istifadə etdiyi silahı gizlətmək üçün həmyerlisi Cavidan Şeydayevə verməsi müəyyən edilib.

Əməliyyat tədbirlərinin davamı olaraq C.Şeydayev tutulub, onun kirayədə yaşadığı mənzilə baxış zamanı "Makarov" markalı tapança, 1 ədəd patron darağı və 2,510 qram heroin aşkar edilərək götürülüb.

# Elbaşının yumşalan diktatorluğu



**Xalid KAZIMLI**

**Astanada ən böyük prospektlərdən birinin adını görəndə prezident Nursultan Nazarbayevin indiyə qədər bildiyim odioz obrazı bir balaca dəyişdi.**

Prospekt Dinmühəmməd Kunayevin adını daşıyırdı.

Kunayev Qazaxıstanın rəhbəri (1964-1986) olub. Əslində öz xalqı üçün böyük işlər görən Kunayev 1986-cı ildə indiki prezident Nazarbayevin karyerasını baltalayıb.

O vaxt 46 yaşlı Nazarbayev Qazaxıstanın baş naziri imiş və Qazaxıstan KP MK-nın birinci katibi olmaq üzrəykən, karyerası Kunayevin iki dodağının arasında olub. Kreml tərəfindən vəzifəsindən uzaqlaşdırılan Kunayev son arzusu olaraq deyib ki, Qazaxıstanın yeni lideri Nazarbayev olmasın, başqası olsun.

Kreml həmin vəzifəyə Gennadi Kolbini təyin edib və Əbiş oğlu Nursultan baş nazir vəzifəsində qalası olub.

Ancaq üstündən 3 il keçəndən sonra Nazarbayev ölkəsinin rəhbəri postuna gəlib və o vaxtdan da bu postdadır. Daha 3 ildən sonra 30 il olacaq ki, o, Qazaxıstanı təkbaşına idarə edir.

Bununla belə, Nazarbayev öz keçmiş himayədarı və sələfinin etdiyi tarixi pisliyi bağışlayıb və paytaxtın ən böyük prospektlərindən birinə onun adının verilməsinə mane olmayıb.

Bu sətirlərin müəllifi həmin prospektin adını görəndə ona görə bir balaca şaşırmışdı ki, bu, bir az Şərqsayağı davranış deyildi.

Şərqdə tarixi yamanlıqları unutmur və bağışlamırlar, fürsət olan kimi qisas alırlar.

Nazarbayev isə qisas almayıb. Əslində o, 1986-cı ilin 16 dekabrında baş verən qanlı hadisələri (sovet hərbçilərinin Kremlin kadr siyasətinə etiraz edən gənc qazaxları qırmasını, həbs edib işgəncə verməsini) Kunayevin yanlış hərəkətinin nəticəsi kimi qələmə verə, onu "xalq düşməni" elan etdirə bilərdi.

Nazarbayevin qəddar diktator obrazının dağılmasına aid daha bir detalı çoxdan bəri bu ölkədə yaşayan azərbaycanlılarla söhbət zamanı öyrəndim.

Onlar danışdılar ki, ölkədə, paytaxtda bu qədər yeniliklər edilir, dövlət əhəmiyyətli obyektlər, sənaye müəssisələri istifadəyə verilir, ölkə üçün mühüm işlər görülür, amma Nazarbayev bunların üstündə piar kampaniyası aparmır, xalqa "bunları sizin üçün edirəm" minnəti qoymur.

Bəlkə də diqqətlə baxmamışıq, 5 gün ərzində Astanada olarkən Nazarbayevin portretlərinə rast gəlmədik. Hər halda, onlar gözəgirən miqdarda, hər addımbaşı olsaydı, görərdik, nəzərimizi cəlb edərdi.

Ölkənin paytaxtını öz doğma vilayətindən uzaq bir şəhərə köçürtməsi isə Nazarbayevin doğma mahal təəssübü çəkən biri olmadığının göstəricisidir. Zatən, ölkənin idarə olunmasında da bu faktor ciddi rol oynamır. Yəni Nazarbayev yerlibazlıq edərək Almatının Kaskelen rayonunda doğulanları kütləvi şəkildə dövlət vəzifələrinə daraşdırmayıb.

Bir şərq müstəbidi üçün xarakterik olmayan bu ştrixlərinə baxmayaraq, o da hakimiyyətdən dördəlli yapışan avtoritar liderlərdəndir. Baş nazir təyin olunduğu zamandan götürsək (bundan əvvəl isə o, 39 yaşındaykən Qazaxıstan KP MK-nın katibi olub), Nazarbayev artıq 32 ildir ki, Qazaxıstanın rəhbəridir.

Əlbəttə, o, qazax xalqının 20-ci əsrdə yetişdirdiyi ən parlaq simalardan biridir, ancaq deyəsən, öz əvəzedilməzliyinə özü də inanıb, xalqını da inandırıb.

Gerçəkdən də sıravi qazaxlar əksəriyyət etibarilə hesab edir ki, Nazarbayev xalqın böyük oğludur (onun rəsmi titulu Elbaşıdır), millətin xilaskarı, dirçəldicisidir.

Mahiyyətcə, Nazarbayev qazax vətənpərvəridir, öz xalqını sevir və onun gələcəyini, hətta 50 il sonrasını da düşünür. Eyni zamanda o, öz ölkəsində 140 başqa milləti barındıracaq, onlara qarşı milli ayrı-seçkiliyə yol verməyəcək qədər beynəlmiləlçidir.

Nazarbayev müxaliflərə qarşı amansızdır və ölkədə hakim "Nur Otan" partiyasından başqa güclü partiya yoxdur. "Nur Otan" da bizim YAP kimi bütün seçkilərin şəriksiz qalibi olur.

Qazaxıstan lideri öz şəxsi düşmənləri ilə də haqq-hesab çəkməyi bacarır, qudurmuş məmurlarını vaxtaşırı cəzalandırır. Ancaq ölkədə belə bir rəy var ki, prezident milyarderə çevrilmiş nazirlərini tutub türməyə basmaq əvəzinə xaricə qaçmalarına göz yumur.

Bəs Nazarbayevdən sonra Qazaxıstanın halı necə olacaq? Müşahidələr göstərir ki, o, Nazarbayevlər sülaləsinin hakimiyyət dönəmini uzatmaq üçün prezident postunu qızına ötürəcək.

Bununla belə, ümidlər böyükdür ki, Qazaxıstan tədricən demokratikləşəcək və bu ölkədə qanuni seçkilər keçiriləcək.

**Aprelin 28-də müxalifətin Antiböhran Koalisiyası "Qarabağ və Rusiya işğalı" mövzusunda dəyirmi masa təşkil edib. Musavat.com-un xəbərinə görə, tədbirdə ölkənin aparıcı siyasi partiyalarının liderləri və təmsilçiləri, ekspertlər, ziyalılar, siyasi və ictimai fəallar iştirak ediblər. Tədbir torpaqların azad edilməsi uğrunda şəhid olan insanların anılması, daha sonra dövlət himninin səsləndirilməsi ilə başlanıb.**

# Antiböhran Koalisiyası "Qarabağ və Rusiya işğalı" mövzusunda dəyirmi masa keçirdi

## Koalisiyaya daxil olan siyasi partiyalar belə hesab edir ki, müstəqilliyimiz üçün təhlükə 1920-ci ildə olduğu kimi yenə də Rusiyadır













**İlk olaraq çıxış edən AXP sədri Pənah Hüseyn bildirib ki, bu gün də ötən əsrdə olduğu kimi Rusiya işğalı təhlükəsi var:** "Qarabağda erməni üsyanının, 1920-ci ildəki ikinci üsyanın təşkilatçısı bolşevik-rus qüvvələri olub. O zaman da Rusiya imperiyasına qarşı, bolşevik işğalına qarşı ölkədə müqavimətin nisbətən zəif olması, ölkədə təslimçilik mühitinin yaradılması müşahidə edilirdi. Həmçinin problemin həllinin Rusiyadan asılı olduğu vurğulanırdı. Eynən bu gün də bu və başqa iddialarda bunu eşidirik, amma məzmun qalır, oxşardır. Bu gün də kimlərsə deyir ki, Qarabağın açarı Moskvanın əlindədir. İşğaldan qurtulmaq üçün Rusiya ilə münasibətləri nizama salmalıyıq deyirlər. Avrasiya İttifaqına, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmaq kimi fikirlər səsləndirilir. Azərbaycanın xarici siyasətini əsaslı bir şəkildə dəyişmək çağırışları eşidilir. Antiböhran Koalisiyasına daxil olan siyasi partiyalar bu məsələ ilə bağlı narahatlığını bildirir. Müstəqilliyimiz üçün təhlükə olan bu təhdid ciddidir. Bugünkü Qarabağ problemi tarixən mövcud olsa da, mənbə etibarı ilə rus işğalına gedib çıxır. Bu gün "nicat yolu kimi yenidən Rusiyanın tərkibinə daxil olmalıyıq" kimi təhlükəli şüarlar səsləndirilir".

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər isə bildirib ki, bu il başlanan hərbi əməliyyatlardan, yəni 2 apreldən sonra vəziyyət əvvəlki kimi deyil:** "Ermənistanla bağlı mif darmadağın oldu. Dünyanın Azərbaycana qarşı olacağı bərədə fikirlər də eləcə. Xalqın əhval-ruhiyyəsi də dəyişib, bu, çox önəmlidir. Biz münaqişənin ədalətli həllinə nail olmaq üçün əlverişli mərhələdə yaşayırıq. Təəssüf ki, Azərbaycan hakimiyyəti yarımçıq, ehtiyatlı addımlarla tərpənir. Halbuki bütün kartlar Azərbaycan hakimiyyətinin əlindədir. Amma yenə təşəbbüs, plan, kimlərdənsə fikir gözləyirlər".

**Azadlıq Partiyasının rəhbəri Əhməd Oruc isə qeyd edib ki, ordumuzu birmənalı müdafiə etməliyik:** "Dağlıq Qarabağ probleminin həlli ciddi bir hakimiyyətin olmasındadır. Azərbaycanın milli maraqlarına xidmət edən hakimiyyətin olmasını tələb edir. Azərbaycanda bu gün faktiki olaraq "beşinci kolon" hakimiyyətdədir. Son parlament seçkiləri də göstərdi ki, Rusiyanın təsiri açıqdır, ortadadır. Azərbaycanda ciddi Rusiya təhlükəsi var. Cəmiyyət olaraq daha ciddi şəkildə mövqe ortaya qoymalıyıq".

**VHP sədri Sabir Rüstəmxanlı isə qeyd edib ki, 1920-ci ildə Azərbaycan Xİ Qızıl Ordu tərəfindən işğal olunub. Bu, həm coğrafi, həm də mənəvi işğal olub:** "Qarabağın bugünkü faciələri bu gündən başladı. Qarabağda minlərlə insan güllələndi. Əgər bu gün Azərbaycanda "beşinci kolon"dan danışırıqsa, onun kökü də 1920-ci ildən, həmin mənəvi işğaldan başlamışdı. Kimsə bizə 5 rayonu, kimsə 7 rayonu qaytaracaq kimi fikirlər səsləndirir. Bəs hanı Azərbaycanın mövqeyi? Səslənən təkliflər Azərbaycanın milli maraqlarına uyğun deyil".

**Ekspert Ərəstun Oruclu isə bildirib ki, bu iki yüz illik dövrdə Azərbaycan torpaqları kiçilə-kiçilə gedir:** "Bu gün də belə fikir formalaşdırılır ki, hər şeyin açarı Rusiyadadır. Bu gün Rusiyanın özünün vəziyyəti yaxşı deyil. Ermənistan belə Rusiyaya meydan oxuyur. Üçgünlük müharibə zamanı bir çox stereotiplər dağıldı. Heç kəs müharibə var deyə tənqiddən kənar olmamalıdır. Bu gün görünür ki, Rusiya şərtlər qoydu, hakimiyyət bunu qəbul etmədi. Ardınca Ermənistanı həvəsləndirdilər. Ermənistan bu gün hücuma hazırlaşır. Azərbaycan dünyada tək deyil. Bunu məsuliyyətlə deyirəm. Yanlış aşılanma var ki, Rusiya qarşısında çökməliyik, bu, belə deyil".

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər qeyd edib ki, qarşımızda duran başlıca düşmən Ermənistan yox, Rusiyadır:** "Ermənistan burada vasitədir". O, hazırkı durumla bağlı Abxaziya ilə paralellər gətirib: "Çıxış yolu nəzəri cəhətdən budur ki, hakimiyyət müxalifəti, xalqı ilə birləşməlidir. Ordu quruculuğu gücləndirilməlidir. Dostlarımızın sayını, hərbi müttəfiqini artırmalıyıq".

**VİP sədri Əli Əliyev bildirib ki, Azərbaycanın müstəqilliyi və suverenliyi təhlükə altına düşə bilər:** "Bu gün Rusiyanın istəyi budur. Beş rayonun qaytarılması istəyinin arxasında bu durur. Azərbaycan Rusiyadan qopma yollarını axtarmalıdır".

**"AG blok"un təsisçilərindən olan Tural Abbaslı isə bildirib ki, problem xalqa söykənməyən hakimiyyətdədir:** "Elçibəy dönəmində hakimiyyət müstəqil siyasətini yürüdürdü. Bu gün isə işğalçı siyasət yürüdən dövlətə söykənsək, bu, müstəqilliyimiz üçün təhlükə olacaq. Biz seçim etməliyik, ya Rusiyasız Azərbaycan, ya işğal. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Danışıqlarda artıq muxtariyyətdən söhbət getməməlidir".

Milli Konqres Partiyasının sədri İxtiyar Şirin, Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidov, Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev, ADP sədrinin müavini Həsrət Rüstəmov, çıxış edən Qarabağ qaziləri də çıxış edərək bildiriblər ki, Rusiyadan çəkinmək lazım deyil.

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə bildirib ki, Antiböhran Koalisiyasının Rusiya işğalı və Qarabağdakı əməliyyatlarla bağlı fikirləri ümumiləşmiş şəkildə sənəddə göstərilib:** "Rus tarixi işğalı bu gün də davam edir. Azərbaycanda bu gün baş verənlər və bugünkü vəziyyət Moskva tərəfindən idarə olunur. Keçmişdən başlanan müqavilələri xatırlatsaq, hamısında Rusiya izi var. Hətta sonuncu Moskva razılaşmasını hər iki tərəfdən Rusiya vətəndaşı olan generallar imzalayıb". Onun sözlərinə görə, müxalifət mübarizəsindən çəkinməyəcək.

❑ **Röya RƏFİYEVA**

# Parlamentdəki yeganə mandat uğrunda mübarizə başladı

## İqbal Ağazadə Ağdaşda müxalifətin tək namizədi ola bilər

**Aprelin 28-də hakim Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib. İclasda YAP-ın iyunun 18-də keçiriləcək təkrar parlament seçkisində iştirak etməsi haqda qərar qəbul edilib. Partiyanın mətbuat xidmətinin yaydığı xəbərdə deyilir ki, YAP seçkidə iştirak qərarı verməklə yanaşı, deputatlığa namizədini də irəli sürüb. İdarə Heyətinin qərarı ilə 90 saylı Ağdaş seçki dairəsindən YAP-ın Ağdaş rayon təşkilatının sədri Cavid Osmanovun namizədliyi irəli sürülüb.**

Müxalifət partiyalarından isə hələlik Ümid Partiyası 90 saylı dairədə keçiriləcək təkrar seçkilərdə iştirak etmək barədə qərar verib. Ümid Partiyasının bu dairədən namizədi partiyanın sədri, keçmiş deputat İqbal Ağazadə olacaq. İqbal Ağazadənin bu barədə verdiyi xəbərə görə, artıq namizədliyini irəli sürməklə bağlı sənədləri toplayıb Mərkəzi Seçki Komissiyasına təqdim edib.

Xatırladaq ki, İqbal Ağazadə ötən il keçirilən parlament seçkilərində deputatı olduğu 35 saylı Xətai üçüncü seçki dairəsindən yenidən namizədliyini irəli sürmüşdü. Həmin dairədə favorit namizəd məhz İqbal Ağazadə olsa da deputat mandatı ASDP sədri Araz Əlizadəyə verildi.

İ.Ağazadə indiyə qədər Ağdaşdan deputat olmasa da rəhbərlik etdiyi partiyanın bu



rayonda güclü təşkilatının olduğu deyilir.

Digər tanınan müxalifət partiyalarının 90 saylı dairədə seçkilərdə iştirak edib-etməyəcəyinə gəlincə, Müsavat Partiyası, AXP, AXCP, KXCP, ADP seçkidə iştirak etməyəcəklərini ötən həftə açıqlayıblar. Müxalif partiyalar bunu Seçki Məcəlləsində dəyişikliklərin olmaması, demokratik seçki mühitinin olmaması ilə əlaqələndirilər. Məsələn, ADP sədri Sərdar Cəlaloğlu bildirib ki, seçkidə ona görə iştirak etmək istəmirlər ki, seçki oyunbazlığında iştirak etməyin mənası yoxdur: "Məzahir Pənahov nə qədər ki, MSK-ya rəhbərlik edir, Azərbaycanda ümumiyyətlə seçkidən danışmaq olmaz. Bir demokratın seçki oyununda iştirak etməsi demokratiyaya xəyanətdən başqa bir şey deyil".

**VİP isə seçki ilə bağlı son qərarını hələ ki verməyib. VİP sədri Əli Əliyev:** "Çünki seçkiyə həlledici təsirə malik iqtidar siyasi dəyişim mövqeyi sərgiləmir. ABŞ səfərindən sonra hakimiyyətin siyasi açılım məsələsində güzəştlərə gedəcəyi gözlənilsə də, hələlik konkret addımlar atılmayıb. Parlamentə və seçkilərə dair iqtidarın mövqeyində əyani dəyişikliklər olmasa seçkilərə qatılmağın məqsədəmüvafiq olmadığı Siyasi Şura tərəfindən bildirildi. Məsələyə növbəti iclasda qayıdılacağı ilə bağlı qərar qəbul edilib".

AMİP isə 90 saylı dairədə seçkiyə qatılıb-qatılmamaq məsələsini hələ müzakirəyə çıxarmayıb.

**Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədlinin "Yeni Müsavat"a verdiyi xəbərə görə, deputatlığa namizədliyini irəli sürmək istəyən şəxslər üçün vaxt iki həftədən artıqdır start götürüb:** "Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə namizədliyi irəli sürülən şəxs tərəfindən müvafiq sənədlər Dairə Seçki Komissiyasına təqdim edildikdən sonra beş gün müddətində DSK bu barədə əsaslandırılmış qərar qəbul edir. Namizədliyin irəli sürülməsi təsdiq edildikdən sonra namizəd və ya onun səlahiyyətli nümayəndəsinə imza vərəqələri verilir. Bundan sonra namizədin müdafiəsi üçün imza toplanması mərhələsi başlayır. Sənədlər səsvermə gününə ən azı 30, ən çoxu 50 gün qalmış saat 18.00-dək DSK-ya təqdim olunmalıdır. İmzalar və digər sənədlər təqdim edildikdən sonra DSK 7 gün müddətində baxıb namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul edir".

Qeyd edək ki, ötən il noyabrın 1-də keçirilən parlament seçkilərində 90 saylı dairədən həmin dairənin deputatı, "AGBank" Müşahidə Şurasının sədri Çingiz Əsədullayev yenidən mandat qazanmışdı. YAP-ın siyahısında olmasına baxmayaraq noyabrın 17-də Mərkəzi Seçki Komissiyasının iclasında 90 saylı Ağdaş seçki dairəsində seçkinin nəticələri ləğv edildi və Əsədullayev mandatsız qaldı.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016

# "Döyüş yarası ilə 24 il, oğul dərdi ilə 24 gün yaşadı"

## Sərdar Cəlaloğlu vəfat edən qazi qardaşından danışdı: "Əsas narahatlığı şəhid oğlu ilə bağlı idi, qorxurdu ki..."

**Aprel ayının əvvəlindən cəbhə bölgəsində başlayan döyüşlərdə şəhid olan mayor Rasim Məmmədovun atası Əbdül Məmmədov uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib. Naxçıvandan olan Rasim Məmmədov aprel ayının 2-də Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu.**


Əbdül Məmmədov    Rasim Məmmədov

Doğulduğu Naxçıvan şəhərində böyük izdihamla dəfn olunan şəhidin 40 mərasimi keçirilmədən atası Əbdül Məmmədov aprelin 27-də vəfat etdi. Əbdül Məmmədov Azərbaycan siyasətinin tanınmış simalarından olan Sərdar Cəlaloğlunun və Qurban Məmmədovun böyük qardaşı idi.

Şəhid atası Əbdül Məmmədov 1990-cı illərdə Naxçıvan uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Özünümüdafiə dəstələrindən birinin komandiri olan Əbdül Məmmədov döyüşlərdə göstərdiyi fədakarlıq və şücaəti ilə diqqət mərkəzində olub. Döyüşlər zamanı yaralanan Ə.Məmmədov bu ağrılarla 24 il yaşaya bildi.

**Ə.Məmmədovun Naxçıvanın müdafiəsi uğrunda gedən döyüşlərdə fəal iştirak etdiyini deyən ADP sədri Sərdar Cəlaloğlu qardaşının döyüş xatirələri haqda müsavat.com-a bunları deyib:** "Qardaşım 90-cı illərin əvvəlində Naxçıvanda polis nəfəri kimi çalışırdı. Naxçıvanda özünümüdafiə dəstələri yaradılarkən həmin dəstələrdən birinə rəhbərlik edirdi. İlk olaraq Babək rayonunun qorunmasını təşkil edirdilər. Milli Ordunun yaradılması haqda fərman veriləndən sonra özünümüdafiə dəstələri Milli Ordunun tərkibinə keçdi. Sonrasında qardaşım Milli Orduda kapitan rütbəsi alaraq batalyon komandiri kimi xidmətə başladı. Sədərək istiqamətində Naxçıvanın müdafiəsini təşkil edirdilər. Naxçıvanda strateji əhəmiyyətli Mil düzü uğrunda döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Mil düzü indiki Lələtəpə kimi böyük əhəmiyyətli ərazilərimizdən biri idi. Mil düzünü almaq istəyən ermənilərə qarşı döyüşlərə qardaşım rəhbərlik edirdi. Onların dəstəsi Mil düzünü düşmən işğalından qorumağı bacardı. Həmin döyüşlərdə Əbdül yaralandı".

**S.Cəlaloğlunun sözlərinə görə, o zaman Heydər Əliyev qardaşına Milli Qəhrəman adı verilməsi üçün Naxçıvan Ali Məclisinin sədri olaraq iki dəfə Bakıya təqdimat göndəribmiş:** "Lakin siyasi intriqalar var idi. Dedilər ki, guya bu təqdimatlar itib. O zamandan onun xidmətləri qiymətləndirilmədi".

Əbdül Məmmədov aldığı güllə yarasından sonra iflic olub. 24 il yataq xəstəsi olan Ə.Məmmədov bir dəfə Əbülfəz Elçibəyin prezident olduğu dövrdə Almaniyaya müalicəyə göndərilib. Lakin onu aldığı yaranın cəngindən xilas etmək mümkün olmayıb. Ağciyər və onurğasından aldığı yaralar onu iflic edib.

**S.Cəlaloğlu bildirdi ki, qardaşı 24 il ərzində 6 dəfə kliniki ölüm keçirib:** "Çox ağır xəstəlik keçirdi. Oğlunun şəhid olmasından sonra vəziyyəti pisləşdi. Artıq həyatla vidalaşmışdı. Ölümündən 3 gün əvvəl telefonla danışmışdıq. Dedi ki, ona görə narahat olmayaq. Əsas narahatlığı şəhid oğlu ilə bağlı idi. Qorxurdu ki, oğlu da onunla eyni taleyi bölüşəcək. Oğlunun layiq olduğu diqqəti və qayğını görməsini arzulayırdı. Qardaşım 24 il aldığı yaralarla yaşadı, amma 24 gün oğul dərdi ilə yaşaya bilmədi. Yalnız danışa və qidalana bilirdi. Bədəni tamamilə iflic olmuşdu. Xanımı 24 il yataq xəstəsi olan həyat yoldaşına qulluq etdi. Bu, böyük fədakarlıqdır".

**Qardaşının ömrünün sonlarında gördüyü diqqətdən razı olan S.Cəlaloğlu əvvəlki illərdən narazı olduqlarını qeyd etdi:** "24 il ərzində onun komandir kimi təqaüd almasına nail ola bilmədik. Adi hərbçi kimi təqaüd alırdı. Məhkəməyə müraciətdən sonra buna nail olduq. Milli Qəhrəman adı alması üçün məsələ qaldırdıq. Amma mümkün olmadı. Son zamanlar isə münasibət dəyişmişdi. Sosial yardım da verilirdi, mənzillə təmin olunmuşdu. Birinci qrup əlil kimi təqaüd alırdı. İş adamları da kömək edirdilər. Qardaşımı da şəhid adlandıra bilərəm. Çünki o, döyüşdə aldığı yaralarla 24 il yaşadı. Bunun nəticəsində də dünyasını dəyişdi".

**Qeyd edək ki, Əbdül Məmmədov dünyaya gəldiyi Cəhri kəndində, şəhid oğlunun yanında torpağa tapşırılıb.**

❑ **İ.MURADOV**

# Əli Həsənov cəbhədəki son vəziyyəti dəyərləndirdi

## "Azərbaycan dinc sakinlərin qətlə yetirilməsinə dözmək niyyətində deyil"



**Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov cəbhədə yaranmış son vəziyyətlə bağlı açıqlama verib. "Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupu həmsədrləri son günlər erməni hərbi birləşmələrinin təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrini, dinc əhalini atəşə tutması ilə bağlı susqunluq nümayiş etdirirlər. Buna münasibətiniz necədir" sualına cavabında Ə. Həsənov deyib: "Təəssüflə qeyd etmək olar ki, bu günlər ərzində beynəlxalq təşkilatlar, o cümlədən də bilavasitə münaqişənin həlli ilə məşğul olan ATƏT Minsk Qrupu, bu quruma daxil olan dövlətlər Ermənistan silahlı birləşmələrinin işğal altında olan Azərbaycan ərazilərindən yaşayış məntəqələrini ağır silahlarla intensiv şəkildə atəşə tutmasına və bunun nəticəsində dinc sakinlərin həlak olmasına heç bir münasibət bildirməyiblər. Hazırkı vəziyyətdə bu qurumların susqunluğu belə bir qənaətə gəlməyə əsas verir ki, beynəlxalq təşkilatlar, ələlxüsus da ATƏT-in Minsk Qrupu bütün səylərini Dağlıq Qarabağdakı separatçı qurumun və ona rəhbərlik edən hərbi cinayətkarların təhlükəsizliyinin təmin edilməsinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində mövcud status-kvonun qorunub saxlanmasına yönəldiblər. Hesab edirik ki, bununla Azərbaycana qarşı ikili standartların ən açıq forması tətbiq olunur, Azərbaycan xalqına, beynəlxalq hüquqa və ədalət prinsipinə hörmətsizlik nümayiş etdirilir.**

Beynəlxalq birlik, ATƏT və digər təşkilatlar işğalçı Ermənistanın dinc azərbaycanlı əhaliyə qarşı yönəlmiş bu addımlarına son qoyulması üçün qətiyyətli tədbirlər görməlidirlər. Azərbaycan Ermənistan rəhbərliyinin və bu ölkənin silahlı qüvvələrinin növbəti təxribatlarına, yaşayış məntəqələrinin dağıdılmasına, dinc sakinlərin qətlə yetirilməsinə dözmək niyyətində deyil. Beynəlxalq ictimaiyyət bundan sonra da susqunluğunu davam etdirəcəyi təqdirdə, Azərbaycan dinc əhalini müdafiə etmək və təxribatlara son qoymaq üçün qətiyyətli tədbirlər görməyə məcbur olacaq. Bundan sonra yaranmış vəziyyətin məsuliyyəti bilavasitə Ermənistanın və onun təxribatlarını susqunluqla qarşılayanların üzərinə düşəcəkdir".

# Ermənistan darmadağın ordusunu təzədən qura biləcəkmi?

## Ekspert: "Ermənistan ordusunun toparlanması çətin olacaq"



**Ayın əvvəllərindən cəbhə xəttində başlayan gərginlik Ermənistan ordusunu çaş-baş salmaqla yanaşı, zəifliyini açıq şəkildə göstərdi. Azərbaycan ordusunun hücumlarına tab gətirməyən düşmən ölkə panik vəziyyətdədir. Bunu prezident Serj Sərkisyanın Müdafiə Nazirliyinin 3 generalını işdən qovması əyani şəkildə göstərir.**

Təcavüzkar ölkənin son zərbələrdən sonra ordunu çevik və keyfiyyətli qurmaq üçün böyük çaba sərf etdiyi barədə xəbərlər yayılıb. Aprelin 6-dakı atəşkəsin də məhz bu səbəbdən Rusiyanın iştirakı ilə əldə olunduğu deyilir. Ekspertlər hesab edirlər ki, ermənilər heç zaman güclü orduya sahib olmayacaqlar. Bunu da əhalinin sayı və dövlətin maddi durumunun aşağı olması ilə əlaqələndirirlər.

**Politoloq Elxan Şahinoğluna görə, Ermənistan prezidenti Sərkisyanın vəziyyəti hazırda çox ağırdır:** "Üç şəxsi ona görə işdən qovdu ki, bütün günahları onların üzərinə yükləmək istəyir. Bu ondan xəbər verir ki, neçə vaxtdır Sərkisyan yalan danışırmış. Berlində olarkən suallara cavabında belə fikir səsləndirdi ki, guya ermənilər Azərbaycan ordusunun hücumunu dəf ediblər, qəhrəmancasına savaşıblar. Əgər qəhrəmancasına savaşıblarsa, o zaman üç mühüm postu tutan generalları nə üçün işdən çıxarırdınız? Özü də bu, elə postlardır ki, ordunun hansı istiqamətlərdə zəifliklərinin olduğunu göstərir. Bundan sonra qısa müddətdə Ermənistan ordusunun toparlanması çətin olacaq. Artıq xəbərlər gəlir ki, yaşlı insanları da orduya cəlb etmək istəyirlər. Başqa alternativləri də yoxdur. Əhali çox azdır. Psixoloji cəhətdən biz itkilərə hazırıq. Çünki torpaqlarımızın azadlığı uğrunda mübarizə aparırıq. Onlar üçün ikiqat ağırdır. Birincisi, onlar öz torpaqları üçün savaşmırlar. Yaşlılar öz övladlarını Ağdam, Füzuli və digər yerlərə göndərirlər və onlar da orada ölürlər. Bu da onlara ağır təsir edir. İkinci bir tərəfdən də say azlığı var. Onsuz da Ermənistanı çoxsaylı gənc nəsil tərk edib. Ordunu yenidən toparlamaq, ölkəni tərk edən əhalini geri qaytarmaq Sərkisyana çox çətin olacaq. Sərkisyan var-gücünü toplayıb, Tərtər istiqamətində bizə problem yaratmağa çalışır. 2-5 aprel tarixlərindən elə də uzun müddət keçməyib. Hələ isti-isti Sərkisyandan soruşulmur ki, yüksəkliklər Azərbaycana niyə verildi və bu qədər itki ilə üzləşdik. Erməni rəhbəri diqqəti yayındırıb, cəmiyyət arasına Rusiya mövzusunu atıb. Erməni cəmiyyəti Rusiyanın onlara kredit verməməsini, müasir silahlar satmamasını və Azərbaycana silah satmasını müzakirə edir. Sərkisyan düşünür ki, verdikləri yüksəklikləri geri ala bilər. Son günlərdə Tərtər istiqamətində atəşkəsin tez-tez pozulmasının arxasında bu amil dayanır. Amma unutduqları bir məqam var ki, Azərbaycan ordusu əks hücuma keçsə, yeni-yeni strateji mövqelər tuta bilər. Nəticədə erməni tərəfin itkiləri artar".

**Politoloq Rusiyanın son proseslərdə bir qədər məsafəli davrandığını da söylədi:** "Rusiya çalışır ki, neytral mövqedə dayansın. Gələcəkdə bunun necə olacağını indidən demək tezdir. Ermənistan hakimiyyəti çox istəyər ki, Rusiya birbaşa yardım etsin. Amma Rusiya da 200 min dollarlıq krediti vermir ki, silah alsınlar. Ermənistanın müdafiə naziri Sergey Ohanyan Moskvada Rusiyanın müdafiə nazirinə az qala yalvarırdı ki, o pulu bizə verin. Bu qənaətə gəldim ki, o pul ermənilərə hələ verilməyib və bu istiqamətdə danışıqlar gedir. 200 min dollar əslində çox kiçik məbləğdir. Azərbaycanın imkanı var və yeni hərbi texnika alacaq. Milyardlarla vəsait xərcləyirik. Ermənistanın bu vəsaiti yoxdur. 200 min dollar 3-4 günlük müharibənin puludur. Həmişə demişəm ki, Rusiyada Qarabağ separatçılarına kömək məsələsi gündəmə gəlsə, Rusiya üçün ciddi başağrısı yaranar. İlk növbədə, Azərbaycanla strateji müttəfiqlik bitəcək. İki il öncə Ukrayna və Rusiya strateji müttəfiq idilər. Amma indi düşmən ölkəyə çevriliblər. Rusiya bu məsələdə mövqe qoysa, Türkiyə, Pakistan kimi dövlətlərdən də bizə dəstək gələcək. Nəticədə müharibə əhatəsi genişlənəcək. Cənubi Qafqaz isə müharibə ocağına çevriləcək. Belə olan halda Rusiyanın problemləri artacaq. Bu səbəbləri düşünərək, rus hakimiyyəti seyrçi mövqe tutur".

❑ **Cavanşir ABBASLI**

# Lirik və reket



Zamin HACI
zaminhaci@gmail.com

**Metronun keçmiş müdiri Tağı müəllimin yağmalanması boyu vətəndaşlarımıza nəsə xüsusi ləzzət edibdir, neçə gündür bunun söhbətləri getməkdədir. Bunda bir qədər də Tağı müəllimin susqunluğu rol oynamaqdadır, çünki jurnalistlər hərəsi bir tərəfdən dızıldaşıb "Tağı müəllim, deyirlər MTN generalı Çovdarov sizin 3 milyon dollarınızı əlinizdən alıbmış, bu haqda nə deyə bilərsiniz" soruşsalar da adam düşmən əlinə keçmiş cəsur kəşfiyyatçı kimi susur, heç bir dövlət sirrimizi ələ vermək istəmir. Nəticədə söhbət uzanır.**

Ancaq bu dız-vız prosesində, bu milli-mənəvi burcutma projesində məni düşündürən başqa detaldır. Ortada indiyə qədər rastlaşmadığımız hal vardır. Lotu jurnalistlər demişkən, status-kvo dəyişilmişdir. Hətta deyərdim postmodernist yanaşmadır. Söhbət nədən gedir? Sən demə, jurnalistlər bu 3 milyon məsələsi haqda hər dəfə zəng vuranda Tağı müəllim sualı diqqətlə axıra qədər dinləyir, sonra isə susur və necə deyərlər, dəstəyi asırmış. *(Cib telefonu çıxandan bu ifadəni bəlkə də "dəstəyi cibinə soxdu" yazmalıyıq).*

Bəs görəsən, suala bu cür susaraq qulaq asmağın mənası nədir? Məncə, jurnalistlər Tağı müəllimin Tağı Sadiq imzası ilə lirik şeirlər yazan korifey sənətkar olmasını diqqətdən qaçırıblar. Tağı müəllim AYB Metro təşkilatının poeziya bölməsinin sədri də olmuşdur. Bu telefonda susaraq dinləmələr, sentimental davranışlar məhz Tağı müəllimin şairanə təbiətindən irəli gəlir. Yeri gəlmişkən, bir jurnalist sual verəndən sonra dəstəkdə hıçqırıqlar və Anar müəllimin "Tələsmə və Zaur" əsərindən Şopenin musiqisini eşitdiyini yazır.

Ümumiyyətlə, biz Tağı Əhmədovun poetik yaradıcılığına nəzər salsaq orada Akif Çovdarovun reket hərəkətlərinin, ödənilən 3 milyonun ürək parçalayan izlərini görə bilərik. Misal üçün, Tağı müəllim "Necə dözüm" adlı şeirində yazırdı:

***"Dağın həzin yeli, çəmən gülüsən***
***Tax yaxan üstə qızılgülü sən***
***Sadiqin qəlbində xoş sevgilisən***
***Halaldır yolunda tökülsə, qanım.***
***Sənsən mənim ruhum ay gözüm, canım".***

Burada şair qanının töküləcəyinə işarə vurmaqla Çovdarovun pul tələbini incə eyhamla uca millətimizə, əlaqədar orqanlara çatdırır. *(Fikrət Qocanın da sovet dövründə Vyetnam haqda belə şeiri var, əslində orada Ağdaş kəndlilərinə kommunistlərin zülmü əks edilmişdi).* Ancaq təəssüf ki, bu işarə diqqətdən yayınmışdır, vəsait əğyara ödənmişdir. Prokurorluqda poeziyaya baxan şəxsi qovmaq lazımdır.

Tağı müəllim başqa bir sənət əsərində - "Toxundu" rədifli qəzəlində yazırdı:

***"Könlümüzü açdıq sevgi dağında***
***Bir çiçəkli çəmən, bir yaz çağında***
***Sadiq qərar tutdu hicran bağında***
***Güllü baharımız qışa toxundu".***

Burda isə MTN generalının pulu qış vaxtı tələb eləməsi, şairin heç olmazsa yaza qədər - "Ulduz" stansiyasından pullar gələnəcən vaxt istəməsi aydın əks olunmuşdur. Ancaq kim idi bunu oxuyan, kim idi belə qəlb harayına diqqət kəsilən? Bizim millət həmişə belə olubdur. Qoyasan bunları elə bir-birinin belinə çıxa-çıxa metroda basırıq eləsin, corablarını yumadan vaqona girsin... Nə olsun ventilyasiya işləmirdi? Guya ingilis xalqı Şekspirdən havalandırma istəyirdi? Gəlin bir az da sənətə qiymət verək, sənətkarı belimizdə gəzdirək. Hərəmiz 20 qəpikdən atışaq, Tağı müəllimin 3 milyonunu yığaq verək, daha susmasın. Susduqca sıra bizə gələcək!

Yazını isə Tağı müəllimin "Gözəl" şeirindən romantik bir bəndlə bitirirəm. Gözəl şeirdir, şair burda birbaşa xalqın mərd qızına girişir, ancaq belindən tuta bilmir, böyük ehtimalla buna da Çovdarov imkan verməmişdir:

***"Kimsəni görmədim tuta əlindən***
***Bir kəs incimədi tuti dilindən***
***Xoşbəxtdir kimsə tutsa, incə belindən***
***Aşkara bunları sezirsən, gözəl.***

***Naz ilə yeridik birgə cüt qoşa***
***Yaydan çıxan oxum dəymişdi daşa***
***Xalqımın mərd qızı, sən xoşbəxt yaşa***
***Sadiqi bəlaya salırsan, gözəl".***

# Qardaş ölkədən yerinə düşən qiymətli Qarabağ dəstəyi

**Təmas xəttində Azərbaycan ordusu ilə açıq döyüşdə üz-üzə gəlməkdən qorxan Ermənistanın işğalçı qüvvələri dinc yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir. Belə getsə, düşmən Ağdərə istiqamətində daha sərt cəza alası olacaq. Ona görə ki, qarşı tərəf Azərbaycana hərbi-strateji və taktiki baxımdan ayrı seçim saxlamır.**




## Ərdoğandan Kreml və işğalçıya sərt ismarış - "Azərbaycan sizə Gürcüstan və Ukrayna deyil..."

### Türkiyə liderinin son Bakı səfəri zamanı təmkinli davranmasının əsas səbəbi üzə çıxır; "Ermənistan odla oynayır" uyarısı Rusiyaya da birbaşa və açıq xəbərdarlıq mesajıdır, çünki...

Artıq bir sıra ekspertlər erməni tərəfinin Azərbaycanı bu addıma getmək zorunda qoyduğu barədə xəbərdarlıq eləməkdədirlər. Məsələn, politoloq Elxan Şahinoğlu hesab edir ki, Tərtərin daima atəş altında saxlanması ordumuzun Ağdərə istiqamətində irəliləməsi məsələsini aktuallaşdırır (axar.az). Onun sözlərinə görə, döyüşlərdə əldə olunan nəticələr Qarabağ münaqişəsinin həll formulunu, faktiki, aydınlaşdırıb.

**Politoloqa görə, işğal altındakı Ermənistan ordusuna zərbələr endirməklə qarşı tərəfin itkilərini artırmaq və bu yolla İrəvana təzyiqi gücləndirmək, Moskva ilə isə tərəfdaşlıq oyununu davam etdirmək lazımdır:** "İkincisi, Rusiya münaqişəyə birbaşa qarışmayana qədər rəsmi Bakı Kremllə münasibətləri tərəfdaş səviyyəsində saxlayacaq. Dağlıq Qarabağ Abxaziyaya, Cənubi Osetiyaya və ya Donbasa bənzəmir. Rusiyanın həmin separatçı bölgələrdən fərqli olaraq, Dağlıq Qarabağla sərhədi yoxdur ki, birbaşa bölgəyə qoşun və ya desant qüvvələrini yeritsin. Digər tərəfdən, Gürcüstan və Ukraynadan fərqli olaraq, Azərbaycan Rusiya ilə strateji tərəfdaşlıqdan imtina etmir. Ancaq Rusiya hakimiyyəti və hərbi komandanlığı Dağlıq Qarabağdakı döyüşlərə birbaşa müdaxilə edərsə, o zaman həm Azərbaycanla münasibətləri gərginləşdirəcək, həm də müharibənin miqyasının genişlənməsinə şərait yaradacaqlar".

***

Azərbaycan isə aydındır ki, yeganə Rusiya faktoruna görə hələ ki səbr göstərir. Eyni zamanda şübhə yox ki, münasibətləri gərgin olan Türkiyə ilə Rusiyanın hərbi münaqişəyə cəlb olunmasını arzulamır, əksinə, bu iki supergücün maksimum anlaşmasına nail olmaqla, konflikt ətrafında özünə daha məqbul şərtlərin yetişməsinə çalışır. Lakin bu, heç də o demək deyil ki, ona kimi Ermənistan cəzasız şəkildə öz bildiyini edəcək və Azərbaycana qarşı təxribatlarda Rusiya amilindən gen-bol yararlanacaq.

Sözsüz ki, qardaş Türkiyə də durumun fərqindədir və vəziyyəti diqqətlə izləyir, özü üçün müəyyən nəticələr çıxarır. Bunu prezident Rəcəb Tayyib Ərdoğanın Bakı səfərindən az sonra Qarabağ mövzusunda verdiyi son açıqlamadan və həmin açıqlamada əksini tapmış, işğalçı və onun müttəfiqinə ünvanlı açıq mesajlardan da görmək olar.

**"Ermənistan odla oynayır. Türkiyədə 100 minə yaxın erməni var. Onlardan 50 mini Türkiyə vətəndaşı deyil. Yaşamaq üçün icazəsi olmayanlarla da xoş davranırıq. Biz xoş niyyətli olduğumuzu göstəririk". Bu sözləri Ərdoğan Serj Sərkisyanın sülh prosesindən imtina etməsi barədə** *(artıq erməni XİN başçısı bunu təkzib edib - red.)* **bəyanatını şərh edərkən deyib.**

**Türkiyə lideri bildirib ki, hazırkı vəziyyətdə Rusiya tam şəkildə Ermənistana açıq dəstək göstərə bilmir, çünki Azərbaycanla da qarşılıqlı əlaqələri var.** "Azərbaycanın azad etdiyi yerlərlə bağlı "bizim üçün əhəmiyyətli deyil" desələr də, Ermənistanı vahimə bürüməyə başlayıb. Ərazi, əsgərlərin sayı və digər imkanlar baxımından Azərbaycanın gücü Ermənistanla müqayisəyə gəlməz. Azərbaycan ətrafındakı ölkələrə bənzəməz - nə Gürcüstan, nə də Ukraynaya bənzəyir. Rusiya Ukraynada da istədiyi nəticəni ala bilmədi. Sadəcə, Krımda tatarların sayı az olduğu üçün orada bir nəticəyə nail oldu. Rusiya doğru hərəkət etmir", - Ərdoğan ələvə edib.

***

Əlbəttə, gözlənilirdi ki, Türkiyə dövlət başçısı bənzər bəyanatı Bakıda verəcək. Amma görünür, olduqca həssas bir dönəmdə Azərbaycanın Rusiya ilə münasibətlərinə əlavə gərginlik gəlməməsi naminə təmkinlilik göstərilib - yəqin ki, həm də rəsmi Bakının xahişi ilə. Ərdoğanın "Rusiyanın Azərbaycanla da qarşılıqlı əlaqələri var", sözləri belə bir qənaətə şübhə yeri saxlamır.

Ancaq bu, əslə o anlama gəlmir ki, Türkiyə Azərbaycanın arxasında deyil. Qətiyyən. Tam əksinə, Ərdoğanın son bəyanatı bir daha Türkiyənin sonadək Azərbaycanın yanında olacağının təsdiqidir. Ümid edək ki, bu, yerində verilən ismarış Ermənistan və onun yiyəsinə ayıldıcı təsir edəcək. Hər necə olmasa, "Ermənistan odla oynayır" demək - elə "Rusiya odla oynayır" deməkdir. Nədən ki, Moskva istəsə, təcavüzkarı dərhal yerində oturdar.

"Rusiya düz eləmir". Bu da Türkiyədən Kremlə diplomatik tərzdə göndərdiyi başqa bir xəbərdarlığa, eyni zamanda Rusiya XİN başçısı Sergey Lavrovun İrəvandakı məlum antitürk ittihamına və Ağrıdağ jestinə cavab sayıla bilər. Bütün bunlar Ermənistan və onun əsas havadarına açıq ismarışlardı ki, öz "işğalçı" itinin zəncirini çəksin, ya da bu iti Azərbaycanın cəzalandırmasına mane olmasın. Görək, Rusiyanın reaksiyası necə olacaq.

Daha bir mühüm detal: sözügedən bəyanatla qardaş ölkə lideri həmçinin xəbərdarlıq edib ki, əgər cəbhədəki yeni və böyük canlı itkilər fonunda daha 50 min narazı erməni Türkiyədən acından ölən Ermənistana qovulsa, kriminal Sərkisyan rejiminin aqibəti necə olar?

Cavab aydındır. Bu, sadəcə olaraq, ordusu üç strateji istiqamətdə böhran yaşayan Ermənistanın hərbi iflası ilə yanaşı, siyasi-iqtisadi iflasını da tezləşdirər. 4 günlük savaşdakı ciddi hərbi uğursuzluqlara görə bugünlərdə işdən qovulan general Mirzəbekyanın erməni işğalçı ordusunun durumu haqda yazdığı şok məktub elə öz-özlüyündə hər şeyi deyir. Bunun üstünə iqtisadi, sosial böhran da gəlsə, Ermənistan adlı dövlətdən nə qalacağı böyük sual altındadır...

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016



# Düşmən Azərbaycanın mülki əhalisini hədəfə aldı - 2 dinc sakin həlak oldu

## Aprelin 28-i gecəsi davam edən 4 saatlıq artilleriya döyüşünə Vaşinqtondan və Moskvadan reaksiya gəldi; rəsmi Bakı beynəlxalq ictimaiyyətə müraciət etdi; ekspertlər Rusiyanın ikili oyununu şərh etdilər

**Aprelin 27-si axşam saatlarından başlayaraq 28-i saat 04.00 radələrinədək erməni silahlı bölmələri tərəfindən Tərtər və Ağdam rayonları ərazisində yerləşən yaşayış məntəqələri və mövqelərimiz 60, 82 və 120 millimetrlik minaatanlardan, həmçinin 122 millimetrlik D-30 haubitsalarından atəşə tutulub. Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq düşmənin ancaq hərbi obyektlərinə adekvat cavab zərbələri endirib.**

Azərbaycanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda belə deyilir. Qeyd edək ki, “Yeni Müsavat”ın reportyor qrupu da cəbhə bölgəsindədir və düşmənin kəndlərimizi atəşə tutmasını müşahidə ediblər. Düşmənin Ağdam rayonunun kəndlərini artilleriya atəşinə tutması nəticəsində 2 mülki vətəndaş həlak olub, 7 nəfər isə yaralanıb. Erməni hərbi birləşmələrinin təmas xəttində törətdikləri təxribat nəticəsində Ağdam rayonunda 50-yə yaxın fərdi yaşayış evi və obyektə, ev və təsərrüfatlara ciddi ziyan dəyib, mal-qara tələf olub.

Bu arada xəbərlər yayılıb ki, Ermənistan ordusu Qarabağda növbəti təxribatlara hazırlaşır. Son görüntülərdə Ermənistanın Qarabağda texnika cəmləşdirdiyi əks olunur. İstisna edilmir ki, təmas xəttinə daşınan qüvvə Ermənistan hərbçiləri deyil, Suriyadan, Livandan Qarabağa döyüşməyə gələn erməni əsilli terrorçulardır. Fakt budur ki, düşmən ölkə əsgər qıtlığından əziyyət çəkdiyi üçün qadınları da Qarabağa göndərir. Həmçinin ölkədə tələbələrə möhlət hüququ ləğv edilib.

***

Düşmənin hərəkətliliyi, üstəlik, son üç gecə ərzində mülki əhalini də azğınlıqla hədəfə alması onun qisas almaq niyyətindən xəbər verir. Xüsusilə də düşmənin Tərtər istiqamətindən hərəkətə keçməsini şərh edən milli təhlükəsizlik eksperti, keçmiş polkovnik İlham İsmayıl deyib ki, Tərtər Dağlıq Qarabağ ətrafında işğal olunmayan yeganə rayondur. Ekspertin sözlərinə görə, Ağdərəni işğaldan azad etmək lazımdır ki, ermənilər Tərtəri atəşə tutmasın. Azərbaycanın düşmənə sarsıdıcı zərbələr endirməsinə tam əsası var. **Politoloq Fərhad Mehdiyev** axar.az-a deyib ki, dünyanın qəbul və əməl etdiyi konvensiyalar Azərbaycan ordusuna mülki vətəndaşlara atəş açan düşmən mövqelərini darmadağın etməyə və əhalini hədəfdə saxlayan nöqtələrə nəzarəti ələ keçirməyə imkan verir: “Bu məsələ 1949-cu il Cenevrə konvensiyası və 1977-ci ildə bu konvensiyaya əlavə edilmiş 1-ci protokolla tənzimlənir. Müharibə vaxtı hökumət binaları və hərbi qurğular istisna olmaqla, dinc vətəndaşları, yaşayış məntəqələrini, məktəbləri, baxçaları hədəfə almaq qadağandır”.

Azərbaycanın Müdafiə Nazirliyi iki gün öncə xəbərdar etmişdi ki, mülki əhali hədəfə alınacağı təqdirdə baş verəcəklərə görə Ermənistan məsuliyyət daşıyacaq. Hər halda, Azərbaycan 2 nəfərin ölümü, 7 nəfərin ağır yaralanması ilə nəticələnən artilleriya hücumunu düşmənə bağışlamayacaq. Ekspertlərin sözlərinə görə, Cenevrə konvensiyası əsas verir ki, Azərbaycan bu halda həmin atəş nöqtələrini arsenalında olan istənilən silahı tətbiq etməklə məhv etsin, həmçinin mülki əhalini hədəfdə saxlayan yüksəklikləri nəzarətə götürsün.

**Vəziyyətin kifayət qədər gərgin olduğunu həm Moskva, həm də Vaşinqtonda yaxşı anlayırlar. “Dağlıq Qarabağda hərbi qarşıdurmanın kəskinliyi azalmır”. Virtualaz.org TASS agentliyinə istinadən xəbər verir ki, bunu V Moskva Beynəlxalq Təhlükəsizlik Konfransında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Nikolay Bordyuya deyib.** ""Dondurulmuş münaqişələr”in qızışma ehtimalı qalmaqdadır. Son zamanlar xüsusilə. Təəssüf ki, Dağlıq Qarabağda hərbi qarşıdurmanın kəskinliyi azalmır" - Bordyuya belə deyib.

**Birləşmiş Ştatlar Dağlıq Qarabağ münaqişəsi zonasında istənilən zorakılıq aktını qətiyyətlə pisləyir. “Report” ABŞ Dövlət Departamentinin saytına istinadən xəbər verir ki, bu sözləri qurumun rəsmi nümayəndəsi Mark Toner aprelin 27-də keçirilən brifinq zamanı bildirib.** “Biz atəşkəs rejiminin kövrək olduğunu gördük. Əvvəlcə gərginliyin ötəri olduğunu düşündük, lakin göründüyü kimi, gərginlik qalmaqdadır. Dövlət katibi Azərbaycan və Ermənistan liderlərinə müraciət ünvanladı. Minsk Qrupundakı həmsədrimiz regiona səfər etdi. Biz hər iki ölkənin hökuməti ilə təmasda olduq və davamlı olaraq çağırış etdik ki, Dağlıq Qarabağ münaqişəsi zonasında istənilən zorakılıq aktını ən qətiyyətli ifadələrlə pisləyirik və sülh prosesinin mümkün qədər tez bir zamanda yenidən bərpa olunduğunu görmək istəyirik. Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur”, - deyə o əlavə edib.

“ABŞ Dövlət Departamenti və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində vəziyyətin gərginləşməsi ilə əlaqədar ifadə etdikləri narahatlıqları bölüşürük”. Bunu isə Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. H.Hacıyev bildirib ki, Ermənistanın qoşunların təmas xətti boyunca sıx şəkildə yaşayan mülki Azərbaycan əhalisinə qarşı qəsdən canlı qüvvənin məhv edilməsi üçün nəzərdə tutulan kasetli mərmilərdən istifadə etməsi heç bir hərbi təyinat daşımır, yalnız mülki insanlar arasında kütləvi qırğın törədilməsinə xidmət edir.





**H.Hacıyev qeyd edib ki, Azərbaycan tərəfi beynəlxalq ictimaiyyəti Ermənistanın yeni təxribatlara hazırlaşması barəsində hərtərəfli şəkildə məlumatlandırıb və xəbərdar edib:** “Qoşunların təmas xətti boyunca yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi obyektlərinə qarşı atmalı olacağı cavab tədbirlərinin məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşəcək”.

***

Aprelin əvvəllərindəki azğınlıqlarına görə ordumuz tərəfindən cəzalandırılan, ağır itki verən düşmən niyə yenidən aktivləşib? Sərkisyan rejimi bununla sifətinimi qorumağa çalışır, yoxsa ortada hansısa bir oyun var?

**Politoloq Arzu Nağıyev “Yeni Müsavat”a bildirdi ki, Sərkisyan öz siyasi xəttini yürütməyə çalışır:** “Bir tərəfdən Rusiya əleyhinə razılaşdırılmış mitinqlər təşkil etdirir, digər tərəfdən, son məğlubiyyətlərə görə müdafiə nazirliyinin ən mühüm postlarında oturan generalları istefaya göndərir. Təsəvvür edin ki, birbaşa cavabdehlik daşıyan Ohanyan kənarda qalır və Moskvaya danışıqlara gedir”.

**Ermənistanın son həftədə mövqeyini ikinci dəfə dəyişərək danışıqlara hazır olduğunu deməsi də suallar yaradır. Hansı situasiya yarandı ki, düşmən sözdə də olsa, qəfildən “konstruktiv” görünməyə çalışdı? Söhbət XİN başçısı E.Nalbəndyanın son açıqlamasından gedir. Özü də Azərbaycanla təmas xəttinə əlavə hərbi qüvvə və ağır texnika daşıdığı bir məqamda danışıqlara hazırlıqla bağlı səslənən fikirlər şübhəlidir. A.Nağıyev qeyd etdi ki, Sərkisyan danışıqları birtərəfli qaydada dayandırmaq qərarı vermək iqtidarında deyil:** “Ən azı ona görə ki, danışıqlar BMT-nin mandatı əsasında ATƏT-in Minsk Qrupuna həvalə edilib. Məhz buna görə də Nalbəndyan danışıqlardan imtina edilməyəcəyini bildirir. Bundan başqa, Ohanyan özü də danışıqların davam edəcəyini bildirdi. Sadəcə olaraq, Sərkisyan bu danışıqlara qondarma qurumun rəhbərliyini də tərəf kimi cəlb etməyə çalışır. Bu da ona görə edilir ki, Sərkisyan separatçılara suverenliklə bağlı verdiyi boş vədləri yerinə yetirmədiyi üçün cavab verməlidir. Bundan başqa, düşünürəm ki, Sərkisyan istefa versə belə, onu əvəzləyəcək şəxs məhz Qarabağ klanından olmalıdır. Çox güman ki, bu məhz elə Ohanyan ola bilər. Buna görə də siyasi gedişlər edilir. Çünki istər separatçıları, istərsə də İrəvanı bu gün Ohanyan qane edə bilər”.

Diqqətçəkən həm də budur ki, Rusiya 5 aprеldən sonra həm sülh təşəbbüsü göstərir, həm də işğalçını ələ almaq üçün onu silahla təmin edir. Rusiyanın müdafiə naziri Şoyqu növbəti dəfə deyib ki, ölkəsi Ermənistana silah verəcək. Digər tərəfdən, Moskva İrəvana vəd etdiyi 200 milyonluq silah pulunu kredit şəklində verməyə hazır olduğunu deyib. Eyni zamanda 27 aprel gecəsi Rusiya Ermənistana 1 ədəd özünün istehsalı olan müasir T-90S tankı göndərib. İddia olunur ki, ermənilər həmin tankı “Tank biatlon-2014" beynəlxalq yarışında 2-ci yeri tutaraq mükafat kimi qazanıblar. Ermənistanın silahlı qüvvələrinə təhvil verilən tankdan Qarabağda istifadə olunacağı şübhəsizdir.

**Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, bütün bunlar Rusiyanın guya Qarabağla bağlı hansısa “sülhsevər siyasət” aparacağına ümid edən və rəsmi Moskvanın hansısa planının olmasını güman edənlərə cavabdır:** “Bir tərəfdən işğalçıya görə xahiş-minnətçi rolunu oynayır, digər tərəfdən də onu həm mənəvi, həm də maddi şəkildə dəstəklədiyini əslə gizlətmir. Rusiya müdafiə nazirinin Moskvada bütün dünyanın və MDB ölkələrinin generaliteti qarşısında söylədikləri də buna əyani sübutdur. Mən dəfələrlə qeyd etmişəm və bu gün də öz fikirlərimdə tam əminəm ki, Rusiya Azərbaycana qarşı, xüsusən də Qarabağ məsələsində çox qeyri-səmimi münasibət göstərir. Mənə elə gəlir ki, aprelin əvvəllərindən başlayaraq artıq Ermənistanın hərbi və mülki infrastrukturlarımıza, hərbçi və sivil insanlarımıza qarşı silahlı təxribatları zamanı Rusiyanın yenə ikibaşlı oyunlar oynaması yəqin ki, münasibətlərimizin gələcəyində mütləq nəzərə alınacaq”.

**Ü.Cəfərova görə, Moskvanın Ermənistana silah verməsi o anlama gəlir ki, biz hələ uzun müddət cəbhə bölgəsində, Qarabağ ətrafında vəziyyətin gərgin olacağına hazır olmalıyıq:** “Çünki bu silahlar adi silahlar deyil və onlar Ermənistanın indiki siyasi-hərbi rəhbərliyinin hakimiyyətlərini xilas etmək üçün təcili surətdə müttəfiqləri tərəfindən onlara veriləcək. Bu proses artıq başlanıb və yaxın zamanlarda daha yeni, modern silahlar bədnam qonşularımızın ordusuna çatdırılacaq”.

**Ermənistanın hərbi-diplomatik cəhdlərinin iflasa uğradığını ermənilər özləri də etiraf edir.** “Dördgünlük müharibə göstərdi ki, 22 il ərzində biz diplomatik sahədə də heç nə bacarmamışıq”. Axar.az xəbər verir ki, bunu Ermənistan mətbuatına açıqlamasında politoloq Aqasi Yenokyan söyləyib. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti problemin mövcud status-kvo ilə həll edildiyini və artıq soyğunçuluğa başlamağın zamanı gəldiyini güman edirdi. Ancaq aprelin əvvəlindəki toqquşma yeni reallığı ortaya qoydu. Hakimiyyəti ifşa edən Yenokyan Ermənistanın problemlərinin əsas mənbəyini həm də xaricdə axtarıb. “Heç kim müdafiə qabiliyyətinin artırılması, Dağlıq Qarabağın təhlükəsizliyinin təmini üçün diplomatik qərarlar haqqında düşünmürdü. Nəticədə bizim diplomatiya dördgünlük müharibənin ilk anından iflic vəziyyətinə düşdü” - Yenoyan əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Bakıda "ölüm hazırlayan" gìzlì sexlər-şok fotofaktlar







## "Yeni Müsavat"ın əməkdaşı paytaxtda mənşəyi bilinməyən ətdən kolbasa hazırlayan sexdə gördüyü dəhşətli mənzərədən yazır

**Son günlər mətbuatda paytaxta gətirilərkən saxlanılan tonlarla mənşəyi bilinməyən ətin hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılması barədə xəbərlər artıb. Məlumatlara görə, bu cür yararsız "məhsullar" paytaxtda gizli kolbasa sexlərinə verilir. "Yeni Müsavat"ın əməkdaşı paytaxtın gözdən-qulaqdan uzaq yerlərində, yaşayış evlərinin arasında, birmərtəbəli köhnə evlərdə kustar üsulla kolbasa hazırlayan sexi bir neçə gün axtarışdan sonra tapmağa nail olub.**

### Ay müştəri...

Keşlə qəsəbəsindəki Mikayil Əliyev küçəsində kiçik bir evdə kolbasa sexinin fəaliyyət göstərdiyini öyrəndikdən sonra həmin ünvana yollandıq. Maraqlı məqam o idi ki, kolbasa sexinin yerini soruşanda insanların üzündə qəribə bir ifadə müşahidə etdik ki, bunu axtardığımız ünvanda necə "keyfiyyətli" məhsul istehsal olunduğuna işarə də saymaq olardı.

Kolbasa sexi Keşlədəki qum zavodunun yanında fəaliyyət göstərir. "Sexin" üzərində heç bir fərqlənmə nişanı olmadığından tapmaqda çətinlik çəkdik. Yaşayış evlərinin yanında yerləşən birmərtəbəli tikilinin həyətində bizi qarşıladılar.

Öncə müştəri qismində, yəni mağaza işlədən sahibkar olaraq rəhbərliklə danışmağa çalışdıq. Mağaza üçün kolbasa alacağımızı bildirdik. Özünü sex rəisi kimi təqdim edən şəxs bu gün hazır kolbasa olmadığını, ancaq sabaha kimi istədiyim qədər məhsulu hazır edə biləcəklərini dedi.

Məhsulların necə hazırlanmasını öyrənmək üçün sexə tərəf gedib ətrafa baxmaq istəsək də, sex rəisi icazə vermədi. Ehtiyatlı davranışını və şübhəli baxışlarını gizlətmək üçün hətta "heç nədən çəkinəcəyim yoxdur. Sertifikatımız var. Qayda-qanun olmasa iş görmək olar...?" deyib güldü. Müştəri obrazını "yandırmamaq" üçün biz də güldük...

### "Delikates" nə delikates...

Məlum oldu ki, sexdə "Delikates" firmasının məhsulları istehsal olunur. "Doktorskaya", "Lyubitelskaya" və sairə növ kolbasa və sosislərin saxtaları hazırlanır, elə yaxınlıqda yerləşən ara məhəllələrdəki mağazalara da satılır. Sex rəhbəri deyir ki, onun istehsal etdiyi "Delikates" kolbasaları mağazalarda 4-6 manat arasında satışa qoyulub.

Kolbasa köhnə daşlardan tikilmiş qum zavodunun toz-torpaq basmış kiçik daxmasında istehsal olunur. Yaşayış binalarının arasında olması isə gizli şəkildə fəaliyyət göstərdiklərinə işarədir.

Sexin içərisi və iş şəraiti də normal deyil. İçəriyə baxmaq üçün gizlicə qum zavodu tərəfdən sexin arxasına keçib, nəfəslikdən içəri boylandıq. Mənzərə dəhşətli idi. Sexin cəmi bir havalandırma yeri var. Həmin yerdən üfunət iyli qara tüstü çıxırdı...

Paslanmış pəncərə tüstünün təsiri ilə bir az da qaralmışdı. Fürsət tapıb sexin damının da fotosunu obyektivimizin yaddaşına sala bildik.

Pəncərənin bir açıq qalan kiçik hissəsindən sexin içərisini görüntüləməyə nail olduq. Kamera daha geniş götürə bilməsə də, insan gözü ilə hər şey açıq-aydın görünürdü. Belə bir şəraitdə kolbasa istehsal edilməsi bunu yeyəcək insana bəri başdan "ölüm hökmü" deməkdir. Sex işçiləri əllərində belə oxşar əşya ilə aparatların içindəki "əti" qarışdırır, arabir avadanlıqlara baxırdılar. Uğultu səsindən nə danışdıqları bəlli olmurdu. Sexin içərisindən gələn üfunət qoxusu bir tərəfə qalsın, antisanitar şərait də göz qabağında idi. Köhnə avadanlıqlar, balaca daxma, üstəgəl qum zavodunun həyətində olması bir yana, bu cür kustar üsulla kolbasa hazırlanması artıq cinayətdir. Elə əgər "sertifikatımız var" deyən sex rəhbərinə inansaq, bu sənədi verənlər də cinayətə ortaqdırlar...





### Eyyub Hüseynov: "Ölkədə qida təhlükəsizliyi haqqında qanun yoxdur"



**Azad İstehsalçılar Birliyinin sədri Eyyub Hüseynov isə bildirdi ki, son aylarda bu cür sexlərin sayı artmaqdadır:** "Bütün belə xoşagəlməz halların səbəbini qanun boşluğunda axtarmaq lazımdır. Ölkədə qida təhlükəsizliyi haqqında qanun yoxdur. Rüşvət amili özünə yer alıb. Son 4 ayda belə sexlərin sayı artmaqdadır. Belə olan halda isə mütləq cinayət baş verir. İstehlakçının hüquqları pozulur. Onlar bizə şikayət edirlər, mən isə dövlət orqanlarına, o cümlədən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə, Standartlaşdırma, Mertologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət edirəm. Onlar isə bildirirlər ki, "hansısa cəza tədbiri görməyə ixtiyarımız yoxdur, məhkəməyə müraciət edin". O boyda dövlət strukturları camaatı məhkəməyə göndərməklə məşğuldur. Bu, anormal haldır. İqtisadiyyat Nazirliyi birtərəfli qaydada sahibkarı müdafiə edib, istehlakçını arxa planda qoymamalıdır. Düşünürəm ki, əgər bu kimi halların qarşısı alınmasa, xəstəliklər artacaq. Gizli yerlərdə, evlərdə kolbasa istehsal etmək isə düzgün deyil. Kolbasa sexləri səliqəli görünüşlü olmalı və standartlara uyğun avadanlıqlarla işləməlidir. Əks halda, belə sexlərin rəhbərləri məsuliyyətə cəlb olunmalı, həmin sexlər bağlanmalıdır".

❑ **Məğrur MƏRD**
**Foto müəllìfìndìr**

# Borclu şirkət rəhbərlərinin ölkədən çıxışı yasaqlandı




**Vergilər Nazirliyi vergi borcunu ödəmədiyinə görə ölkədən getmə hüququ məhdudlaşdırılmış şirkət rəhbərlərinin siyahısını açıqlayıb. Fins.az-ın məlumatına görə, siyahıda 115 şirkətin və onun məsul şəxsinin adı var.**

"İcra haqqında" Azərbaycan Respublikası Qanununun 84-1.1-ci maddəsinə, Vergi Məcəlləsinin 23.1.16-cı və 23.1.15-3-cü maddələrinə əsasən vergi ödəyicisi vergi borcunu ödəmədikdə məhkəmənin qərarı əsasında fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanlarının rəhbərlərinin ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər.

Bu isə o deməkdir ki, vergi borcunu tam ödəməyənə kimi belə şəxslərin ölkədən kənara çıxmasına icazə verilmir.

# Ermənilər türk mallarının idxalına qadağa qoymaq istəyir



**Ermənistan türk mallarının idxalına qadağa qoyulmasını nəzərdən keçirir. Rusiya KİV-i xəbər verir ki, bu barədə aprelin 27-də "Hökumət saatı" zamanı parlamentdə çıxış edən Ermənistanın iqtisadiyyat naziri Artsvik Minasyan bildirib.**

Deputatlardan biri ölkələr arasında diplomatik əlaqələrin olmadığını, eləcə də Ankaranın Qarabağ məsələsi üzrə Azərbaycanın mövqeyini dəstəklədiyini nəzərə alaraq, hökumətə türk mallarının idxalına, Türkiyədə istirahətə və ölkəyə birbaşa reyslərin həyata keçirilməsinə qadağa qoymağı təklif edib.

Nazir qeyd edib ki, baş nazirin göstərişi ilə İqtisadiyyat Nazirliyi bu məsələ üzrə müvafiq araşdırmalar aparır, keyfiyyət və rəqabət nöqteyi-nəzərindən erməni iqtisadiyyatına təhdid doğuran mallar ilk növbədə araşdırılır.

Nazirin sözlərinə görə, Avrasiya İqtisadi İttifaqı çərçivəsində Ermənistanın Aİİ bazarının təhlükəsizliyini qorumaq məqsədilə bir sıra mallara sanksiyalar tətbiq edə biləcəyi vasitələr mövcuddur.

"Amma bütün məsələləri dəqiq hesablamaq lazımdır ki, sosial ziyan dəyməsin. Bu yaxınlarda parlamentə baxılması üçün çıxarılacaq dəqiq fəaliyyət proqramını təqdim edəcəyik", - Minasyan deyib.

# Dollar ərzaq məhsullarını yenə bahalaşdıracaq

## Qubad İbadoğlu: "Manat nə qədər süni möhkəmləndirilirsə, bir o qədər də ucuzlaşmağa məhkumdur"

**Dollar bahalaşdı. Azərbaycan Mərkəzi Bankı ABŞ dollarının aprelin 28-nə olan rəsmi məzənnəsini 1,5033 AZN-dən 1,5056 AZN səviyyəsinə qaldırdı. Bahalaşma cüzi olsa da, bu xəbərin ölkə bazarlarına təsiri hər zaman böyük olur. Son bir ayda hökumət demək olar ki, dolları inzibati yolla ucuzlaşdırmağa çalışırdı və həqiqətən də dollar hiss olunacaq dərəcədə ucuzlaşdı.**


Qubad İbadoğlu

Hətta manatı möhkəmlətmək üçün Mərkəzi Bank bir neçə addım da ataraq, dollarla olan əmanətlərin faizini qaldırdı, dollarla kreditləri dayandırdı, bazarda dollara tələbat azaldı. Lakin inzibati üsullar dolların növbəti bahalaşma mərhələsinə başlaması üçün maneə ola bilmədi. Bəs görəsən, dollar qalxırsa, özü ilə nələri qaldıracaq? Onsuz da bahalaşmanın gözlənildiyi vaxtda, hansı sahələrdə bu proses daha da sürətlənəcək?

**İqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dolların yenidən bahalaşması sübut edir ki, Mərkəzi Bank öz yanaşması ilə milli valyutanın məzənnəsini tənzimləməkdə davam edir:** "Çox təəssüf ki, bu hər hansı iqtisadi siyasətlə, iqtisadi hadisə ilə əlaqələndirilmir. Yalnız Mərkəzi Bankın özünün planlaşdırdığı vaxt məzənnənin aşağı enməsi və ya qalxması istiqamətində siyasət yeridilir. Əslində Azərbaycan manatı nə qədər süni olaraq dollar qarşısında möhkəmləndirilirsə, bir o qədər də ucuzlaşmağa məhkumdur. Uzunmüddətli dövr üçün götürüləndə, Azərbaycanda dolların bahalaşması labüddür. Ona görə də insanları çaşdırmaq üçün belə siyasət yürütmək effekt verməyəcək. Digər tərəfdən, manatı möhkəmlədən Mərkəzi Bank göstərməyə çalışır ki, manata investisiya qoymaq olar, manat hesabında depozit yığmaq olar. Bu yolla Mərkəzi Bank manata etibar, inam formalaşdırmaq istəyir. Hesab edirəm ki, bu, inzibati yolla mümkün deyil. İndiki halda manatın dollara nisbətdə ucuzlaşması daha məqsədəuyğundur. Ola bilər ki, qısa müddətdən sonra yenidən dolları ucuzlaşdırmaqla manatı əvvəlki vəziyyətinə qaytarsınlar. Ancaq istənilən halda uzun və ortamüddətli dövrdə manatın məzənnəsi ucuzlaşmağa məhkumdur".

**Ekspert bildirdi ki, hökumətin manatın möhkəmlənməsi üçün atdığı addımlar da indiki situasiyada heç bir effekt verməyəcək:** "Hökumətin atdığı addımlar indiki şərtlərlə, indiki iqtisadi mühitdə effekt vermək gücündə deyil. Əksinə, dollar bahalaşarsa, bir çox sahələrdə bahalaşma olacaq. İlk olaraq, bahalaşma anonsunu supermarketlər verdi, hökumətə müraciət edərək bahalaşmanın qaçılmaz olduğunu bildirdilər. Əgər hökumət bu müraciətə real addımlarla cavab verməsə, onlar bahalaşmaya gedəcəklər. Bu bahalaşma istehlak bazarında müşahidə olunacaq. Xüsusən də idxal məhsullarında və ərzaq bazarında bahalaşma olacaq".

❑ **Nərgiz LİFTİYEVA**



# İstənilən şəxs Bakıda helikopter sifariş edə bilər

## Aydın Quliyev: "Bu helikopterlərin jurnalistlər üçün əlçatan olacağını düşünmürəm"

**Azərbaycanda özəl uçuşlar üçün helikopter sifariş etmək mümkün olacaq. "Silk Way Helicopter Services" (SWHS MMC) kommersiya helikopter şirkəti Azərbaycanda ilk dəfə olaraq helikopter aviadaşımalarının onlayn sifarişi xidmətini təqdim edir. SWHS şirkətinin rəsmi internet saytında fiziki və hüquqi şəxslərə çarter və özəl uçuşların onlayn sifarişi təklif olunur. Bütün sərnişinlərə uçuş müddətində sığorta verilir. Xidmətin göstərilməsi üçün müraciətlərə üç iş günü ərzində baxılır.**

Qeyd edək ki, SWHS şirkəti 2015-ci ildə Bakıda keçirilən İlk Avropa Oyunları zamanı helikopterdən foto və videoçəkilişlər təşkil etmişdi.

Məlum məsələdir ki, Azərbaycanda nəqliyyat sıxlığı kifayət qədərdir. Bu sıxlığa görə də müxtəlif saatlarda tıxac yarana bilər. Maraqlıdır, vacib işi olan vətəndaşlar da gedəcəkləri ünvana tez çatmaq üçün bu helikopter sifariş edə biləcəklərmi? Ümumiyyətlə, helikopter sifariş etmək bir nəfərə neçəyə başa gələcək və şərtləri nələrdir?

**AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənskiyə müraciət etdik. P.Kəsəmənski suallarımızı yazılı şəkildə cavablandırdı:** "Uçuş qiymətləri seçilmiş istiqamətdən və uçuş davamiyyətindən asılıdır. Şəxsiyyətini müvafiq sənədlə təsdiq edən istənilən şəxs uçuş sifarişini onlayn edə bilər. Yeni xidmət növü olduğundan hazırda güzəştlər nəzərdə tutulmayıb".

**Maraqlıdır, jurnalistlər, qəzetlər bu helikopter sifarişi xidmətindən istifadə etməyi düşünürmü?**

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bunun maliyyə baxımından bir çox şəxslər üçün əlçatan olmayacağını dedi:** "Bu helikopterdən sifariş etmək çox çətindir. Çünki hələlik onun şərtlərinin nə olacağı bəlli deyil. Yəqin ki, müəyyən maliyyə məsələsindən asılı olacaq. Əgər bu maliyyə məsələsindən asılı olacaqsa, bu helikopterlərin jurnalistlər üçün o qədər də əlçatan olacağını düşünmürəm. Başqa şərtlərlə bağlı, məsələn, döyüş bölgəsinə bu helikopterlə getmək məsələsində maliyyə də rol oynamır. Bunun üçün müvafiq icazə lazım olacaq. Müvafiq dövlət orqanlarının bunu münasib bilib bilməməsi lazım olacaq. Ümumiyyətlə, bu məsələni hələlik tam şərh etmək qeyri-mümkündür. Təkcə onu deyə bilərəm ki, onun maliyyə tərəflərinin cəmiyyətin bir çox təbəqələri üçün əlçatan ola biləcəyini düşünmürəm".

❑ **Günel MANAFLI**

# Azərbaycan təbliğat üçün dünya ulduzlarından niyə istifadə etmir?

**Son günlər ölkə və dünya mediasında müzakirə olunan mövzulardan biri də Hollivud ulduzu Corc Kluninin Ermənistana səfəridir. Dünyaşöhrətli ulduzu hava limanında Rusiya iş adamı Ruben Vardaryan qarşılayıb. Aktyor qondarma "erməni soyqırımı"na həsr olunmuş tədbirlərdə və erməni əsilli Rusiya iş adamı Ruben Vardaryanın "100 həyat" layihəsi çərçivəsində "Avrora" mükafatlandırma mərasimində iştirak edib.**



**Mehman Əliyev:**
"Bu tipli şoularla heç nə dəyişməyəcək, biz özümüz dəyişməliyik"



**Hikmət Hacızadə:**
"Corc Kluni erməni arvadı Amalın xətrinə Ermənistana gedib, erməni diasporuna görə yox"

Maraqlı burasıdır ki, azərbaycanlı milyarderlərin də zaman-zaman Hollivud ulduzları və ya dünyaşöhrətli müğənnilərlə fotoları, xəbərləri dərc edilib. Məsələn, azərbaycanlı milyarder Telman İsmayılovun müğənni Cennifer Lopeza ad günündə 10 dəqiqəlik iştirakı üçün 1 milyon 400 min pul ödəməsi, eləcə də Şakiranı 1 milyon dollar qarşılığında öz tədbirində Azərbaycan mahnısına ayaqyalın oynatması... heç kimə sir deyil. Bütün bunların Azərbaycan, Azərbaycanın haqq səsini dünyaya çatdırmaq adına bir faydası varmı? Yox, təbii ki.

Bəs bizim diaspora niyə bu cür istiqamətlərə pul sərf etmir, danışıqlar aparmır?

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, burada əsas məsələ hansısa dünyaşöhrətli ulduzu Azərbaycana gətirib, ondan təbliğat üçün istifadə etmək deyil. Müsahibimizin sözlərinə görə, ölkəmizə gəlmək istəyən ulduzlar da azdır və buna səbəb Azərbaycanın adının beynəlxalq hesabatlardakı yeridir:** "Azərbaycan sonuncu söz azadlığı ilə bağlı hesabatlarda azad olmayan ölkə kimi yer alıb. Bu məsələlərdə Ermənistandan xeyli geridə qalırıq. Azərbaycanı dünyada korrupsiyalaşmış, insan haqlarının pozulduğu, ən çox məhbus olan ölkə kimi tanıyırlar. Son nəticədə isə Ermənistana gedən məşhurlar bunu belə əsaslandırırlar ki, Qarabağda demokratiya var, ona görə də onlara dəstək vermək lazımdır".

**M.Əliyev dedi ki, bu cür vəziyyətdə Cenifer Lopezi və ya hansısa parlaq ulduzu ölkəyə gətirmək bizə müsbət heç nə verməyəcək. "Biz özümüz dəyişməliyik" deyən müsahibimizə görə, indiki durumda hansısa artist Azərbaycana gəlib, nəsə danışmağa çətinlik çəkir:** "Azərbaycana münasibət problemlidir. Hətta Ermənistana müəyyən dərəcədə dəstək verirlər. Açırlar interneti, araşdırırlar beynəlxalq təşkilatların hesabatlarını. Orada hansı ölkənin demokratiya baxımdan durumu necədirsə, görünür. İmici pis olan ölkəyə hətta Hollivud ulduzlarının münasibəti də birmənalı deyil. Bu gün onların gəlib burada şəkil çəkdirməsi ciddi hadisədir. Sabah onları ölkələrində, məsələn, "söz azadlığı olmayan" ölkəyə dəstək verməkdə suçlaya bilərlər".

**Müsahibimiz dedi ki, hazırda ölkədə qlobal forum keçirilir və dünyanın indiki gərgin dönəmində liderlər bura toplaşmalı idi. M.Əliyevin sözlərinə görə, toplantının genişmiqyaslı keçirilməməsinin səbəbi ölkənin imici ilə bağlıdır. İmic insanları bu istəkdən uzaqlaşdırır:** "Hazırda Ermənistanda keçmiş müdafiə nazirləri, müxalifətlə görüşlər keçirilir, müzakirələr aparılır. Bizdə belə görüş, dialoq yoxdur. Bunu müşahidə edən hansı dünyaşöhrətli ulduz bizə dəstək verər? Ona görə də deyirəm ki, bu tipli şoularla heç nə dəyişməyəcək. Biz özümüz dəyişməliyik".

**Politoloq Hikmət Hacızadə isə hesab edir ki, Corc Kluninin Ermənistana səfərinin arxasında Ermənistan diasporasının gücü, maliyyəsi dayanmır. Müsahibimiz hesab edir ki, burda əsas məsələ Hollivud ulduzunun erməni həyat yoldaşı Amal Kluni-dir:** "Onun arvadı ermənidir, ermənipərəstdir. Corc Kluni bu günə qədər Ermənistan tanıyırdı? Yoxsa erməni soyqırımına görə kədərlənirdi? Sadəcə, arvadına görə tanıyıb, bilib və gedib. Nə vaxt ki, bizim qızlar da Corc Klunilərə, Leonardo di Kaprioya ərə gedəcəklər, onda da o ulduzlar gəlib bizdə Xocalı soyqırımı ilə bağlı tədbirlərə qatılacaqlar".

**Müsahibimiz eyni zamanda dedi ki, Azərbaycan diasporu da beynəlxalq tədbirlərdə tanınmış konqresmenləri, siyasət, şou-biznes adamlarını öz tərəfinə çəkmək üçün xeyli işlər görür:** "O qədər konyaklar, kürülər paylanır, ziyafətlər verilir. Bizimkilər də edir. Xarici ölkələrdəki tədbirlərdə tanınmış müğənniləri görən kimi onlara "Sarı gəlin" oxutdururlar. Bunun özü də təbliğatdır. Amma davamlı olmalıdır. Daha çox kürü, daha çox konyak..."

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 92 (6413) 29 aprel 2016




# Gürcüstan hökuməti Rusiyaya çaxıramı satılıb - ilginc iddia

Gürcüstanın Türkiyə iş adamlarına qarşı qanunsuz davranışları ixracatda problemlər yaradıb, əvəzində isə bu ölkənin Rusiya ilə mal dövriyyəsi artıb

**Gürcüstan hökuməti Türkiyədən Azərbaycana gələn malların öz ölkəsinin ərazisindən keçməsinə çətinlik yaradıb. Bu iddia ilə türkiyəli iş adamları çıxış edib. Onların sözlərinə görə, Gürcüstanın Türkiyə iş adamlarına qarşı qanunsuz davranışları nəticəsində ixracatda problemlər yaranıb. Bu süni əngəllər son 3 ayda daha da çoxalıb. ANS-in məlumatına görə, bu sözləri Qara Dəniz İxracatçılar Birliyinin sədri Əhməd Hamdi Gündoğan deyib.**

O qeyd edib ki, Azərbaycana gələn Türkiyə TIR-larının sürücülərinə qarşı qanunsuz cərimələr tətbiq edilir. "Sərhəd keçid məntəqələrində heç bir tıxac olmadığı halda türk iş adamlarına məxsus TIR-lar qeyri-qanuni formada dayanacaqlara aparılır. Amma bu dayanacaqlar pulludur. Hər bir sürücü 30 lari (20 AZN) dayanacaq pulu ödəyir. Bizim TIR-lar səbəbsiz yerə o dayanacaqda günlərlə saxlanılır. Gürcüstan Türkiyə ilə sərhəd qonşusudur. Bir çox sahələrdə Gürcüstan bizim dəstəyimizlə ayaqda dura bilib. Amma onların etdikləri Ümumdünya Ticarət Təşkilatının qaydalarına ziddir. Hətta bəzi hallarda sürücülərdən 200 dollar pul tələb olunur. Türkiyə və Gürcüstan arasında sərbəst ticarət haqqında anlaşma olduğu halda, bu sənəd kağız üzərində qalıb" deyə, Hamdi Gündoğan bildirib.

Xatırladaq ki, ötən ilin noyabr ayında Türkiyə və Rusiya arasında münasibətlər korlandıqdan sonra Türkiyə TIR-larının Gürcüstan ərazisindən Azərbaycana gələn sürücülərin sayı artıb. Bəzi hallarda həmin sürücülərə qarşı hücumlar da təşkil edilib. Artıq Türkiyə hökuməti bu barədə Gürcüstan tərəfi ilə danışıqlara başlayıb. Məlumata görə, söhbət əsasən kənd təsərrüfatı məhsullarının tranzitindən gedir.

Gürcüstanın Türkiyə iş adamlarına qarşı bu addımı atmasında "Rusiya izi" axtaranlar da az deyil. Belə ki, Gürcüstanın yeni hökuməti əsasən qərbmeyilli olsa da, onun Rusiya ilə gizli yaxınlaşmalarının olduğu da deyilir.

Ekspert də düşünür ki, Gürcüstanda yaradılan bu əngəl son təyyarə olaylarından sonra Rusiyanın Türkiyəyə qoyduğu embarqonun başqa bir formasıdır.

**İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələdə Rusiyanın əli olması ehtimalı çox yüksəkdir:** "Son zamanlar Gürcüstanın Rusiya ilə ticarət dövriyyəsində çox böyük artım müşahidə olunur. Xüsusən də Gürcüstanın ənənəvi ixrac məhsulu olan şərabçılıq və kənd təsərrüfatı məhsulları Rusiya bazarına daha rahat daxil ola bilir. Son rəqəmlər də göstərir ki, son zamanlar Gürcüstanın Rusiyaya ixracatında 30 faizə yaxın artım var. Çox güman ki, Rusiya tərəfindən ixracatın artırılması şərtlərindən biri də Türkiyədən tranzit gələn məhsulların keçməsinə maneə yaratmaqdır. Çünki Gürcüstan üzərindən gələn Türkiyə məhsulları təkcə Azərbaycana gətirilmir, Rusiya yolu bağlı olduğu üçün ölkəmiz üzərindən bərə ilə keçməklə Qazaxıstana və Orta Asiya respublikalarına da çatdırılırdı. Çox güman ki, Rusiya ilə ticarət dövriyyəsinin artırılmasının şərtlərindən biri də Türkiyə məhsullarının Gürcüstan üzərindən keçməsinə maksimum əngəl yaradılması da ola bilər. Bu məsələ bağlı qapılar arxasında müzakirə olunub və Gürcüstan hökumətinin atdığı addımların bu danışıqların bir parçası olması ehtimalı çox yüksəkdir. Ancaq bunun nə vaxta qədər davam edəcəyini demək çətindir. Yaradılan əngəllərin uzunmüddətli, yoxsa qısamüddətli olmasını yaxın günlərdə biləcəyik. Türkiyə ilə Gürcüstan arasında olan danışıqlarda bu məsələ həll olunacaq. Gürcüstanla Türkiyə arasında da həm turist dövriyyəsi, həm də ticarət dövriyyəsi kifayət qədər yüksəkdir. Türkiyənin də Gürcüstana müəyyən şərtlər diktə etmək imkanı var. Əgər burada Rusiya faktoru rol oynayıbsa, danışıqlarda bu məsələnin neytrallaşması ehtimalı çox yüksəkdir".

**Bu prosesin Azərbaycana təsirinə gəlincə, N.Cəfərli qeyd etdi ki, əgər ticarət dövriyyəsi zəifləyəcəksə, bu, ölkəmizə də öz təsirini göstərəcək:** "Hökumətin də elan etdiyi hədəflərdən biri Azərbaycanı tranzit ölkəyə çevirməkdir. Bunun üçün də müəyyən qədər infrastruktur yatırımları oldu. Orta Asiyanın Azərbaycan üzərindən təmin olunmasında müəyyən işlər görülmüşdü. Əgər ticarət dövriyyəsi zəifləyəcəksə, Gürcüstan üzərindən keçib Azərbaycana gələn və Orta Asiya respublikalarına çatdırılan məhsullarda ləngimələr olacaqsa, bu, Azərbaycana da ciddi iqtisadi ziyan vuracaq. Bundan başqa, Azərbaycanın da Türkiyə ilə ticarət əlaqələrinə mənfi təsir göstərə bilər. Çünki Türkiyə ilə bizim ticarət dövriyyəmiz kifayət qədər böyük rəqəmlərlə ölçülür. Azərbaycanın bu prosesdən ziyansız çıxması mümkün deyil, ziyan olacaq. Lakin bu ziyanın nə qədər olacağı və prosesin nə qədər davam edəcəyi danışıqlardan sonra bəlli olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Banklar batmaqda, hökumət baxmaqda...

"Zaminbank" və "Bank Standard"da vəziyyət daha pisdir; **iqtisadçı:** "Banklar xilas olmazsa, ölkənin maliyyət sektoru məhvə sürüklənə bilər"







**Devalvasiyalardan sonra kreditlər verilməsinə qoyulan məhdudiyyətlər, problemli kreditlərin artması, dollarla verilən kreditlərə yasaq qoyulması bankları çətin vəziyyətə salıb. Mətbuata sızan məlumatlara görə, daha iki bank- "Zaminbank" və "Bank Standard"da da vəziyyət pisdir. "Marja" saytı iddia edir ki, "Zaminbank" bir müddətdir işçilərinin əmək haqlarını verə bilmir.**

Həmçinin "Zaminbank" təxminən 1 aydır ki, bankomatlarını pulla təmin edə bilmir. Məlumata görə, buna səbəb bankın nağd pul çatışmazlığı ilə üzləşməsidir.

Buna görə də "Zaminbank" rəhbərliyi bankomatlara pul qoyulmamasına, müştərilərin kart hesablarındakı vəsaitlərin yalnız bankın filiallarında məhdud şəkildə nağdlaşdırılmasına qərar verib. "Bank Standard" QSC-nin maliyyə vəziyyətinin kəskin pisləşdiyi barədə xəbərlər gəlir. Əmanət müqavilələrinin müddəti bitmiş əmanətçilər bankdan pullarını geri ala bilmirlər.

**İqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bankların bu vəziyyətə düşməsinin səbəbi gəlirlərinin kredit faizlərindən asılı olması ilə bağlıdır:** "Azərbaycan bank sektoru müasir tələblərə cavab vermirdi. Bundan əvvəlki dövrdə bank sektoru daha çox kredit faizləri hesabına öz gəlirlərini təmin edirdi, digər bank funksiyalarının yerinə yetirilməsində çox geri qalırdı. Təkcə onu demək kifayətdir ki, bankların gəlirlərinin 74 faizi kredit faizləri hesabına əldə olunurdu. Devalvasiyadan sonra bankların kredit portfelində yaranan ciddi problemlər və bəzi kreditlərin geri qayıtmasında ləngimələr, eyni zamanda reytinqlərinin aşağı düşməsi səbəbindən bankların xarici mənbələrdən kredit cəlb etmək imkanlarının məhdudlaşması və real sektorun vəziyyətinin gündən-günə geriləməsi, bankların biznesə kredit verə bilməməsi bir çox bankın çətin vəziyyətə düşməsi ilə nəticələndi. Hər hansı bank kredit verə bilmirsə, gəlir əldə edə bilmirsə, kiçik bank xidmətləri vasitəsilə xərcləri belə ödəməkdə çətinlik çəkəcəkləri bəllidir. Devalvasiyadan sonra da deyirdik ki, əgər islahatlar keçirilməsə, bir çox bankların birləşməsi və bağlanması qaçılmazdır".

**İqtisadçının sözlərinə görə, bu gün banklarda yaranmış çətin vəziyyət heç də gözlənilməz deyil:** "Hökumət bankların xilas olması istiqamətində heç bir təkliflə çıxış etmədi. Xatırlayırsınızsa, 2008-ci ildə dünya maliyyə böhranının ən qızğın vaxtlarında ABŞ maliyyə sektorunu xilas etmək məqsədilə banklara çox ciddi güzəşt paketləri təklif etdi. Bankları çətin vəziyyətdən xilas etdi. Nəticədə 5-6 ildən sonra bu ölkənin maliyyə sektorundakı problemlər həll olundu. Üstəlik, dünyanın ən inkişaf etmiş iqtisadiyyata malik ölkəsinə çevrildi. Bu baxımdan hökumət nəzərə almalıdır ki, bank sektoru ölkənin əsas maliyyə dayağıdır. Azərbaycan kimi kapital çatışmazlığı olan ölkədə bank sektorunda vəziyyət çətinləşirsə, deməli, sahibkarlığın, biznesin inkişafından danışmaq da doğru deyil. Təsadüfi deyil ki, böyük biznes indeksinin kredit əlçatanlığı göstəricisi üzrə də Azərbaycan dünyada ən geri qalan ölkələrdən biri hesab olunur. Hazırda yaranmış situasiya isə vəziyyəti daha da ağırlaşdırır. Bankların xilas edilməsinin birinci yolu nağd vəsait çatışmazlığının təmin edilməsidir. Çünki bankların çox yüksək həcmdə problemli kreditləri var. Rəsmi rəqəmlərdə problemli kreditlərin 6,7 faiz göstərilsə də, bu, real rəqəm deyil. Bizim banklarla apardığımız danışıqlarda isə bəlli olur ki, problemli kreditlərin həcmi 30-40 faizin üzərindədir. Lakin banklar bu göstəricilərin ictimailəşdirilməsində maraqlı deyil".

**R. Həsənovun fikrincə, hazırda xarici valyutada olan kreditlərin qaytarılması ilə bağlı güzəşt paketi təklif olunmalıdır:** "Azərbaycan vətəndaşlarının kredit qaytarmaq qabiliyyəti, manatla olan kreditlərdə belə minimuma düşüb. Çünki ixtisarlar gedib, biznesin gəlirləri azalıb, bir çox hallarda biznes zərərlə işləyir, xarici valyutada olan kreditləri iki dəfə artıb. Bu səbəblər kreditlərin geri qayıtmasını əngəlləyir. Ona görə də "Zaminbank" və "Bank Standart" çox ciddi nağd pul qıtlığı ilə üzləşiblər. Bu banklarda likvitlik demək olar ki, yox səviyyəsindədir. Belə bir situasiya növbəti dövrlərdə digər banklara da sıçrayacaq. 2016-cı ilin sonuna kimi bir çox banklar defolt riski ilə üzləşəcəklər. Bu isə hökumət üçün bir siqnal olmalıdır və bank sektorunun xilası üçün bir addım atmalıdır. Cəmiyyətdə belə bir fikir var ki, son illərdə banklar daha çox sələmçiliklə məşğul olublar, yüksək kredit faizləri qoyublar, indi isə günahlarının cəzasını çəkirlər. Hətta hökumət rəsmilərinin çıxışında da bu nüans vurğulanır ki, banklar özləri özlərini xilas etsinlər, vətəndaşlara güzəşt etsinlər. Ancaq hələ ki bu deyilənlər arxa plana keçirilmədir. Çünki banklar xilas olmazsa ölkənin maliyyə sektorunu, biznes sahələrini domino effekti ilə məhvə sürükləyə bilər".

❑ **Nərgiz LİFTİYEVA**